# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

12 İYUN 2020-ci il

№ 93 (4224)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AVROPARLAMENTDƏN QARABAĞ PROBLEMİ İLƏ BAĞLI MİSİLSİZ BƏYANAT - HƏTTA ERMƏNİSTAN ÜZRƏ MƏRUZƏÇİ...

■ səh. 8 ■

Avropa Parlamenti Ermənistanın Dağlıq Qarabağda işğalın nəticələrini qanuniləşdirmək cəhdlərini alt-üst etdi... işğal olunmuş ərazilər termini...

■ səh. 8 ■

Azərbaycan Avropada Ermənistana daha bir mühüm diplomatik zərbə vurdu

■ səh. 9 ■

Rusiya mediası Paşinyan hökumətinin koronavirusla mübarizə "fəaliyyətinin" rüsvayçı nəticələrini bütün dünyaya faş etdi...

■ səh. 6 ■

Ermənilər bizim alban kilsələri ilə bağlı çirkin oyunu Samtsxe-Cavaxetidə gürcü kilsələri ilə oynamağa başlayıb

■ səh. 10 ■

Paşinyan cəmi birhəftəlik virus yoluxmasının ardınca siyasi kadr manevrlərinə başladı - yeni kadrların heç biri haqda yaxşı söhbətlər getmir...

■ səh. 7 ■

Paşinyanın Kanadada bahalı ev alması siyasi qalmaqalları artırdı...

■ səh. 7 ■

Azərbaycan neft-qazının dollar əvəzinə avro və manatla satılması gündəmə gəlir...

■ səh. 13 ■

Məşhur marketlər şəbəkəsində nə baş verib - "Bazarstore"dan reaksiya...

■ səh. 15 ■



## Koronavirus dövründə inkişaf etmiş ölkələrdə investisiya qoyuluşu 10-20, Azərbaycanda cəmi 2,8 faiz azalıb...

■ səh. 11 ■



**Karantin qaydalarını pozanlara qarşı cəzalar cinayət işlərinə qədər sərtləşdirildi... Əli Əsədov...**

■ səh. 3 ■

**Karantindən sonra öz yaxın adamına dəbdəbəli təkrar yas saxlamaq planları olanlar var - İslam bilicilərinin fikri...**

■ səh. 14 ■



**Məşhur bloger Azərbaycan ordusunun 18-22 may təlimlərini ABŞ ordusu ilə müqayisə etdi**

■ səh. 5 ■

Azərbaycan qlobal sülhsevərlik indeksində 12 pillə yüksəldi - 163 ölkə arasında 120-ci...

■ səh. 5 ■



"Demokrat" Bəxtiyar Hacıyevdən Azərbaycana qarşı rüsvayçı müqayisə - Xocalı hara, Yasamal-2020 hara...

■ səh. 4 ■



Koronavirus dövründə Azərbaycanı müsbət xarakterizə edən daha bir fakt - aqrar sektorda 4 faizə yaxın artım...

■ səh. 11 ■



Qarşıdakı 15 günlük karantin qaydalarında hansı dəyişikliklər edildi - yeniliklər daha çox məsuliyyətli vətəndaşlar üçündür...

■ səh. 15 ■



Supermarketlər virusun daha çox yayılma yerlərinə çevrilir - sosial məsafə tələbi kütləvi pozulur...

■ səh. 14 ■



## Əməkdar artist Yasəf Eyvazov Prezidentə niyə təşəkkür etdi...

**Bakıdan Əməkdar artist, ud ifaçısı, Prezident mükafatçısı Yasəf Eyvazov da Prezident İlham Əliyevə müraciət edib.**

"Sizi səmimiyyətlə salamlayır, Sizə dərin hörmət və ehtiramımı bildirirəm. Hazırda dünyamızın çox ağır bir vəziyyətlə üzləşdiyi, amansız xəstəliklə mübarizə apardığı vaxtda Siz uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə dərhal qabaqlayıcı tədbirlərə başlayaraq, epidemiyanın sürətlə yayılmasının qarşısını aldınız və vətəndaşların təhlükəsizliyini bütün işlərdən üstün tutdunuz.

Sizin mədəniyyətimizə, musiqimizə, milli-mənəvi dəyərlərimizə olan diqqət və qayğınızı da yüksək qiymətləndirir, ürəkdən alqışlayıram. Bu problemlər arasında biz musiqiçiləri və incəsənət xadimlərini də yaddan çıxarmayıb əməyimizi yüksək dəyərləndirdiyiniz və mükafatlandırdığınıza, şəxsən məni Prezident mükafatına layiq gördüyünüzə görə şəxsən öz adımdan və ailəmin adından Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Çox sağ olun, cənab Prezident! Allah Sizi, ailənizi və xalqımızı qorusun" - deyə Y.Eyvazov qeyd edib.

*Baki-xeber.com*

## Qubanın Əlik kəndindən Prezidentə belə yazdılar - ...etibarlı dost...

**"Bu gün Azərbaycan vətəndaşları Sizi özlərinə ən etibarlı dost, qayğıkeş ailə üzvü bilirlər. Fikrimcə, bu, çox ədalətli yanaşmadır.**



Çünki Sizin işlərinizin bəhrəsini, səmərəsini Azərbaycanın hər bir ailəsində müşahidə etmək mümkündür. Bütün bunları görənlər Sizə xoş ürək sözlərini ifadə edir, təşəkkür məktubları ünvanlayır, görməyənlər isə gərək problemi başqa yerdə axtarsınlar, bəzi nadanlar kimi, xarici sifarişlər əsasında təşkil edilən qarayaxma kampaniyalarının iştirakçısına çevrilməsinlər.

Qeyd etmək istəyirəm ki, mən özüm əliləm və dövlətimizin qayğısını hər zaman hiss edirəm. Bir müddət bundan əvvəl qəzalı evimin təmiri ilə əlaqədar etdiyim müraciətim nəzərə alındı və lazımi işlər görüldü. Bundan əlavə, bu yaxınlarda çətin pandemiya dövründə iki ayı əhatə edən birdəfəlik yardım almışam. Bunlar olmasaydı, indi həyatım necə olardı?!". Bu fikirləri Quba rayonunun Əlik kəndindən Paşayev Abdul Şəmsibala oğlu Prezident İlham Əliyevə ünvanladığı müraciətdə bildirir.

A.Paşayev qeyd edir ki, onun kimi Prezidentdən qayğı görən insanlar çoxdur və hər birinin alqışı, duası Prezidentlədir.

*Baki-xeber.com*

## Azərbaycanda koronavirusa 352 yeni yoluxma... 210 nəfər sağaldı, 6 nəfər vəfat etdi



**Koronavirusdan gündəlik olaraq, ölüm hallarının artması tendensiyası müşahidə edilir.**

"Trend"-in məlumatına görə, bunu "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"nin (TƏBİB) şöbə müdiri Yaqut Qarayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində bildirib. Onun sözlərinə görə, bu gün 352 nəfər koronavirusa yoluxub. Sağalan xəstələrin sayı 210 nəfər olub, 6 nəfər isə dünyasını dəyişib: "Göstəricilər epidemioloji vəziyyətin pisləşdiyini göstərir".

# Prezident İlham Əliyev Xətai rayonunda "Azərenerji"nin "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib

**Prezident İlham Əliyev iyunun 11-də Bakının Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib və yarımstansiyanı işə salıb.**



"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına yarımstansiyada görülən işlər barədə məlumat verib.

Prezident İlham Əliyev deyib:"Son illər ərzində energetika sahəsində çox böyük işlər görülüb, həm generasiya gücləri artıb, eyni zamanda, siz itirilmiş gücləri bərpa edirsiniz. Yaxın zamanlarda Mingəçevirdəki İstilik Elektrik Stansiyasının da yenidənqurmadan sonra açılışını edəcəyik. Əslində bu, yenidən tikilmiş 2400 meqavat gücündə elektrik stansiyasıdır və yarımstansiyaların tikintisi. Məhz buna görə bu gün enerji təminatı ilə dayanıqlılıq əmsalına görə Azərbaycan dünya miqyasında ikinci yerdədir. Özü də bunu biz demirik, Davos Ümumdünya İqtisadi Forumu deyir. Yəni, biz bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq və işlər davam edir. Mənim rayonlara səfərlərim çərçivəsində də yeni yarımstansiyalar açılır. Bu yaxınlarda Tərtərdə, Ağcabədidə iki yarımstansiya açılıbdır. İndi "Əhmədli" yarımstansiyası, "8-ci Kilometr", "Xırdalan", "Buzovna", "Ağ şəhər"...

Bizim bütün elektrik təsərrüfatımız tamamilə yenilənməli və ən yüksək müasir standartlara cavab verməlidir. Bir sıra layihələr başa çatıb, ancaq hələ görüləsi işlər çoxdur, onları da ardıcıllıqla icra edəcəyik".

# Azərbaycan XİN Ermənistanın işğal etdiyi ərazilərimizə qanunsuz yol çəkilişilə bağlı açıqlama yaydı

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən üçüncü magistral yolun tikintisi ilə bağlı açıqlama yayıb.**

XİN-in Mətbuat xidməti idarəsindən baki-xeber.com-a daxil olan açıqlamada deyilir:"Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə Ermənistanı ölkəmizin hazırda işğal altında olan Dağlıq Qarabağ bölgəsi ilə birləşdirən növbəti, üçüncü yolun çəkilişi işğalçı Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrində həyata keçirilən qeyri-qanuni fəaliyyətin bir hissəsidir. Ermənistanın bu addımı təcavüzkar ölkənin Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin işğalını möhkəmləndirmək məqsədi güdərək, həmçinin bu ərazilərdə demoqrafik vəziyyətin məqsədyönlü şəkildə dəyişdirilməsi, qanunsuz məskunlaşdırmanın davam etdirilməsi, təbii sərvətlərin talan edilməsi, istismarı və daşınmasının həyata keçirilməsinə xidmət edə bilər.

Xarici İşlər Nazirliyinin hələ 2016-cı ildə hazırladığı "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatı, eləcə də 2019-cu ildə Azərbaycan XİN və "Azərkosmos" ASC tərəfindən hazırlanmış və Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qanunsuz fəaliyyətin peykdən çəkilmiş təsvirlərini əks etdirən hesabatlarda işğalçı ölkənin həyata keçirdiyi qeyri-qanuni fəaliyyəti təsdiq edən kifayət qədər dəlillər göstərilib. Bu dəlillər Azərbaycan və Ermənistan arasında beynəlxalq sərhədin işğal olunmuş hissəsi boyunca təbii sərvətlərin qeyri-qanuni daşınmasının həyata keçirildiyini və Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz istehsal olunmuş məhsulların, eləcə də təbii sərvətlərin həmin ərazilərdən beynəlxalq bazarlara daşınması üçün Ermənistanın nəqliyyat məntəqəsi rolunu oynadığını üzə çıxarır. Beləliklə də, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə üçüncü magistral yolu çəkməsinin başlıca səbəbi işğalçı ölkənin məhz qeyri-qanuni fəaliyyətini davam etdirərək işğalı möhkəmləndirmək və Azərbaycan ərazilərinin ilhaqını həyata keçirmək niyyətini aşkar şəkildə göstərir.



Ermənistanın qanunsuz əməlləri onun öz beynəlxalq öhdəliklərinə ziddir, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinin, həmçinin 1949-cu il Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarının kobud şəkildə pozulmasıdır. Məlumdur ki, beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzkar siyasəti ilə bağlı birmənalı mövqeyini başda BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri olmaqla, bu günədək qəbul olunmuş çoxsaylı qərar və sənədlərdə əks etdirib. Eyni zamanda, Ermənistanın işğal etdiyi ərazilərdə qeyri-qanuni fəaliyyətini pisləyən, habelə işğal nəticəsində yaranmış vəziyyətin saxlanılması üçün iqtisadi fəaliyyət də daxil olmaqla hər hansı yardım göstərilməsindən çəkinməyə çağıran qətnamə və bəyanatlar İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən qəbul olunub. Ermənistanın qanunsuz fəaliyyətinə münasibətdə Avropa Parlamentinin üzvləri tərəfindən birgə bəyanatın qəbul olunması isə işğalçı ölkəyə ünvanlanmış konkret çağırış kimi dəyərləndirilməlidir.

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsinə cəhd göstərən siyasəti uğursuzluğa məhkumdur. Münaqişənin davamlı həllinə nail olmağın yeganə yolu BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində tələb edildiyi kimi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ regionu və digər işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasının təmin olunmasıdır.

Azərbaycana qarşı törədilən təcavüz siyasətinin, Azərbaycan ərazilərinin hərbi işğalda saxlanılması və bu ərazilərdə etnik təmizləməyə məruz qalan yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının pozulmasının, eləcə də bu torpaqlarda həyata keçirilən bütün qeyri-qanuni fəaliyyətin tam məsuliyyəti Ermənistanın üzərindədir. İşğalçı ölkə bu əməllərinin cavabını gec-tez verəcəkdir".

# Karantin qaydalarını pozanlara qarşı cəzalar cinayət işlərinə qədər sərtləşdirildi... Əli Əsədov...

**"Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları"nda dəyişiklik edilib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, karantin rejimini pozan şəxslər İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyacaq.**

## *Mehman Muradlı: "Cinayət məsuliyyətinə cəlb edilmə qorxusu bir çox məsuliyyətsiz insanları ölçülü-biçili davranmağa vadar edəcək"*



Qeyd edək ki, bunadək karantin rejimini pozan şəxslər İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb olunurdular.

Bu yöndə olan cəzaların sərtləşməsi hansı zərurətdən irəli gəlib və hansı effektə malik ola bilər?

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu addımın atılması zərurətdən irəli gəlib:"Təəssüflər olsun ki, koronavirus adlı bəla hələ də davam etməkdə, iqtisadiyyatları çökdürtməkdə, insan həyatlarını məhv etməkdədir. Hələ də bu bəla ilə bağlı dünyada, bir çox ölkələrdə müxtəlif yönümdə facilələr yaşanmaqdadır. Çox təəssüflər olsun ki, biz də dünyanın bir parçası olaraq, bu bəladan, bu virusdan yan keçə, ötüşə bilmədik. Amma üstünlüyümüz ondadır ki, biz bu bəlanın ciddiliyini, nələrə qadir ola biləcəyini vaxtında, zamanında anladıq və qəbul etdik. Xüsusilə də Prezident İlham Əliyev bu məsələdə ilk gündən, ilk andan öz qətiyyətini, iradəsini, cəsarətini ortaya qoydu. Gündəmimizin əsas mövzusu olan koronavirus epidemiyası ilə bağlı təhlükə qanunlara yeni dəyişikliklər zərurəti yaratdı. Bu infeksiya yeni qaydaların tətbiqinə səbəb oldu. Azərbaycan hökuməti də təhlükənin miqyasını azaltmaq üçün dərhal Nazirlər Kabineti yanında Operativ Qərargah yaratdı və vəziyyətin təhlilindən sonra bəzi qaydaların tətbiqi barədə qərar qəbul edildi.

"Sanitariya-epidemioloji salamatlıq" haqqında Qanuna görə, ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının əhali arasında yoluxucu və qeyri-yoluxucu kütləvi xəstəliklərin, zəhərlənmələrin yayılmasının qarşısını almağa və ləğv edilməsinə yönəldilmiş xüsusi təhsil, hərəkət, daşıma və əmək rejimi şərtlərinin qoyulması və ləğv edilməsi səlahiyyəti var.

Həmin qanuna görə, yoluxucu, parazitar, kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarananda hökumət ölkə ərazisində xüsusi əmək, təhsil, hərəkət, daşıma şəraiti və rejimləri tətbiq edir, həmçinin, belə xəstəliklərin əmələ gəlməsinin, yayılmasının qarşısını almağa və onları ləğv etməyə yönəldilən zərərsizləşdirmə, dezinfeksiya, , deratizasiya və dezaktivasiya işləri görür. Bu baxımdan da, bəzi cəzaların sərtləməsi tam qanunidir və real zərurətdən irəli gəlir. Virusun qarısının alınması istiqamətində dövlət əlindən gələn nə varsa edir. Amma bu kifayət deyil. Bunun üçün vətəndaşların da məsuliyyətli olması lazımdır. Təəssüflər olsun ki, bir çox vətəndaşlara maarifləndirmə və inzibati cəzalar təsir etmir. Bu baxımdan da, bilərəkdən qaydanı pozub başqalarının sağlamlığı üçün təhlükə yaradanlarla bağlı daha ciddi tədbirlərin görülməsi doğru addımdır. Hesab edirəm ki, cinayət məsuliyyətinə cəlb edilmə qorxusu bir çox məsuliyyətsiz insanları ölçülü-biçili davranmağa vadar edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Ölkədaxili təyyarə reysləri bərpa olunur, Naxçıvana uçan sərnişinlər ev karantinində saxlanacaq

**Hələlik, Azərbaycan Hava Yollarında yerli aviareyslərin bərpa olunması qərara alınıb. "Trend"-in məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi brifinqdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti Eldar Hacıyev deyib.**

Onun sözlərinə görə, xarici uçuşlar barədə, hələ ki, qərar verilməyib:"Biz qaydalarımızı bütün dövlətlərin hava yolları şirkətinə göndərmişik. Hansı şirkətlər bu qaydalara riayət etməklə Azərbaycana uçuş həyata keçirmək istəsə, bu məsələyə Operativ Qərargahda baxılacaq. Bundan sonra məsələ barədə razılıq əldə olunacaq. Beynəlxalq reyslərin bərpası barədə isə Operativ Qərargahın növbəti toplantılarında müzakirə ediləndən sonra qərar veriləcək".

### Azərbaycana gələn şəxslər hansı halda karantinə götürülməyə bilər...

E.Hacıyev deyib ki, uçuşlarla bağlı qaydalara görə, Azərbaycan ərazisinə gələn bütün sərnişinlər 48 saat qüvvədə olan test nəticələri ilə ölkəyə daxil olmalıdır. Onun sözlərinə görə, bu bütün sərnişinlərdən tələb olunacaq:"Çarter uçuşlarına da bu qaydalar tətbiq oluna bilər. Əgər testlə bağlı arayış təqdim olunarsa, həmin şəxs karantinə götürülməyə bilər".

### Naxçvan-Bakı reysilə uçan şəxsin koronavirus testi ödənişsiz aparılacaq

E.Hacıyev qeyd edib ki, Naxçvan-Bakı reysi üzrə uçuş həyata keçirəcək şəxsin koronavirus testi ödənişsiz aparılacaq. Onun sözlərinə görə, vətəndaş onlayn bilet aldıqdan sonra AZAL və TƏBİB-in birgə hazırladığı elektron bazaya həmin şəxs barədə məlumat yerləşdiriləcək: "Vətəndaş elektron sistemdən biləcək ki, nə vaxt və harada koronavirus testindən keçə biləcək. Qeyd edim ki, bu test dövlət tərəfindən ödənişsiz aparılacaq və 48 saat qüvvədə qalacaq".

E.Hacıyev bildirib ki, "Azərbaycan Hava Yolları" tərəfindən biletinin pulunu geri almaq istəyən sərnişinlər qarşısında bütün öhdəliklər həyata keçiriləcək.

E.Hacıyev qeyd edib ki, bu, uçuşlar bərpa edildikdən sonra 60 gün ərzində mümkün olacaq.

O, həmçinin əlavə edib ki, biletinin vaxtını dəyişmək istəyənlərə vauçerlər təqdim ediləcək.

### Beynəlxalq uçuşlar dayananda artıq 178 min 691 bilet satılmışdı

"Beynəlxalq uçuşlar dayananda artıq 178 min 691 bilet satılmışdı və onlar istifadə edilməmişdi" - deyən E.Hacıyevin sözlərinə görə, bu biletləri əksər insanlar qaytarmaq istəmir:"Həmin şəxslər gözləyirlər ki, AZAL nə zamansa beynəlxalq uçuşları bərpa edəndən sonra həmin biletlərlə səyahət etsinlər".

### Aviabiletlərin qiyməti beynəlxalq uçuşlar bərpa olunandan sonra müəyyən ediləcək

E.Hacıyev qeyd edib ki, aviabiletlərin qiyməti beynəlxalq uçuşlar bərpa olunandan sonra müəyyən ediləcək. Onun sözlərinə görə, biletlərin qiymətindən danışmazdan öncə beynəlxalq uçuşlar başlanmalıdır: "Hazırda yeni qiymətlər barədə müzakirələr aparılmır. Uçuşlar başlayandan sonra bununla bağlı məsələ müzakirə olunacaq. Çünki, uçuş zamanı yerlər məhdud olacaq, sərnişinlərə qoruyucu avadanlıqlar paylanacaq. Bu xərclər isə şirkətin üzərinə düşəcək. Amma AZAL, hələ ki, uçuşların qiymətinin bahalaşdırılması barədə düşünməyib"



### Naxçıvana bileti olanlar testdən sonra ev karantininə göndəriləcək

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) şöbə müdiri Yaqut Qarayeva isə bildirib ki, hazırda COVİD-19-la bağlı ucuş qaydaları ölkə daxilində həyata keçirilən ucuşlara aiddir.

Onun sözlərinə görə, ölkə xaricində olan ucuşlarla bağlı qaydalar qarşıdakı günlərdə təsdiqlənəcək.

Y.Qarayeva əlavə edib ki, Naxçıvana bileti olan vətəndaşlar dövlət hesabına testdən keçirildikdən sonra ev karantininə yola salınacaq.

### Apteklərə dərmanların pulsuz çatdırılması tövsiyə edilir

Y.Qarayeva bildirib ki, qarşıdakı sərt karantin günlərində aptek sahiblərinə dərmanların pulsuz çatdırılması tövsiyə edilir. Onun sözlərinə görə, bundan sui-istifadə halları olmamalıdır: "Gündəlik istifadə edilən dərmanların tədarükünün əvvəlcədən edilməsi tövsiyə edilir. Amma bəzi təxirəsalınmaz hallarda dərmanlar ünvana çatdırıla bilər".

Y.Qarayeva bədən hərarəti yüksək olduğu üçün buraxılış imtahanlarında iştirak etməyən şagirdlər üçün yenidən imtahanların təşkilinin TƏBİB-in səlahiyyətində olan məsələ olmadığını da sözlərinə əlavə edib.

Onun sözlərinə görə, bu məsələlər Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyi tərəfindən müzakirə ediləbilər.

# "Demokrat" Bəxtiyar Hacıyevdən Azərbaycana qarşı rüsvayçı müqayisə - Xocalı hara, Yasamal-2020 hara...

## *Fazil Mustafa: "Bu, xarici kəşfiyyatın tezisidir"*

**Bir neçə gündür ki, sosial medianın Azərbaycan seqmentində Bakının Yasamal rayonu ərazisində polisin karantin qaydalarını pozan vətəndaşlara qarşı apardığı əməliyyatla bağlı müzakirələr gedir. Həmin əməliyyatı təqdir edənlərlə yanaşı, ona tənqidi yanaşanlar da var.**

Tənqidi yanaşanların arqumentləri bütün əməliyyatla deyil, əməliyyatın həyata keçirilməsində yol verilən bəzi polis nöqsanları ilə bağlıdır. Belə nöqsanların olduğunu DİN-in özü də rəsmi açıqlamalarında etiraf edir, hətta bununla bağlı müəyyən cəza tədbirlərinin görüldüyü də bildirilir. Ancaq bəzi sapı özümüzdən olan baltalar bu sitasiyadan istifadə edib, dövlətə qarşı müxalif olduqlarını ortaya qoyurlar. Bəli, düz eşitdiniz, hakimiyyətə qarşı yox, məhz dövlətə qarşı. Hətta adını "demokrat" qoyan Bəxtiyar Hacıyev kimi bəzi adamlar Xocalı faciəsini Yasamaldakı polis əməliyyatı ilə eyniləşdirən təbliğat aparır. Onun bu hərəkəti isə birmənalı qarılanmayıb. Bəzi tanınmış şəxslər sosial şəbəkə vasitəsilə Bəxtiyara layiq olduğu yeri göstərirlər. Həmin məlumatlarda bildirilir ki, çirkin təbliğata başlayan şəxs keçən il Varsavada erməni şəbəkəsinin keçirdiyi Azərbaycan əleyhinə tədbirdə spiker olub:"Həmin tədbirin təşkilatçısı Qarabağ müharibəsi zamanı Xankəndidə terorçulara tibbi yardım göstərən təşkilat olub. Təşkilatın həmtəsisçisi illərlə qondarma rejim "Arsaxa" göstəriy fəaliyyətə görə keçən il Xankəndidə qondarma hakimiyyətdən "Arsaxın dostu" adını da alıb".

Aydındır ki, bu təbliğatda məqsəd, sadəcə Azərbaycanda ictimai şüurun Xocalı kimi ağrılı-həssas nöqtəsinə basmaqla faciədən siyasi alət olaraq istifadə etmək deyil. Bu həm də ermənilərin Xocalıya görə məsuliyyətdən yaxa qurtarmaq üçün illərdir istifadə etdiyi "Xocalı qətliamını Azərbaycan polisi törədib" iddiasının daxildə səsləndirilməsidir.

Bəxtiyarın apardığı təbliğata etiraz edənlərdən biri də millət vəkili Etibar Əliyevdir. O, yazısında bildirir ki, gənc "demokrat" Azərbaycan polisinin Yasamalda etdiyi hərəkəti dövlətə qarşı çevirir, bununla da Paşinyanın "əlinə oynayır":"Ermənilərin bizə qarşı irəli sürdüyü murdar "arqumentlərə" dəstək verir. Özü də açıqaçığına...

Statuslarının birində görün o nə yazır:"...Görürsünüzmü, necə uzaqlara gedir? Vardenisli Bəxtiyar həmyerlisi İcevanlı Nikola "arqument" verir. Ardınca da Yasamalda baş verən insidentlə Xocalını bərabərləşdirir və göstərir ki, erməni qatilləri ilə Azərbaycan polisi arasında fərq yoxdur. Bu tip adamlar ölkəni ifşa etmək üçün pusquda durublar. Paşinyan isə bunlardan donos gözləyir..."





Bəxtiyar Hacıyevə sərt etiraz bildirənlərdən biri də millət vəkili Fazil Mustafadır. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, buna sadə baxmaq lazım deyil:"Bu, xarici kəşfiyyatın tezisidir. Polis bütün dünyada zorakılıq edir. Götürək ki, Azərbaycanda da belə bir hadisə baş verib. Azərbaycan polisi müqəddəs deyil ki. Bu, xüsusi quradırılmış təxribat planıdır. İnsanların çoxu da bu küyə düşüb. Hansısa qanunsuzluğa görə etirazın formaları var. Kütləvi şəkildə polisə etimadsızlığın göstərilməsi dövlətin təməlini laxlatmağa yönəlib. Polis kənara çəkilsə nə olacaq? İstəyirik ki, xəstəlik baş alıb getsin? Görün hardan başlayıb, hara gəliblər? Nədir, ölüm-itim olub? Kimisə öldürsəydilər nə olardı? Azərbaycan körpəsini öldürən erməni cəlladları ilə Azərbaycan polisini müqayisə etmək hansı anlama gələ bilər? Deməli, ssenari tam başqadır. Belələri birbaşa Paşinyana "pas" ötürür. Bəxtiyar Hacıyev Vikipediyada özü barədə ingilis dilində məlumat verib, yazır ki, Ermənistanın Vardenis rayonundandır. Oranın adı bəyəm Basarkeçər deyil? Bu adam niyə ermənin dediyi dildə o təqdimatı edir? Onda sənin Paşinyanla fərqin nə olur? Mən bu adamı müdafiə edənlərin vətən hissinə də şübhə ilə yanaşıram. Vaxtilə Rəşid Əliyev adlı bir azərbaycanlı atom mütəxəssisini İran saxlamışdı. **Mən onun azad olunması üçün müraciətə imza atmağa adam tapa bilmirdim. Təəssüf ki, alimini müdafiə etməyən adamlar bir şəxsin üzərindən ölkənin bütün dayaqlarının sarsıdılmasına dəstək olurlar. Bu, hakimiyyət uğrunda mübarizə deyil, bu, Azərbaycanı çökdürmək uğrunda mübarizədir. Geri çəkilsək, heç də yaxşı olmayacaq. Bu Vətəni biz qorumalıyıq. Həssas məqamdır, belə araqarışdıranlara imkan verməməliyik".**

***Məhəmmədəli QƏRİBLİ***

# Narıncı zona elan edilən daha 4 rayonda karantin postları quruldu...




**Nazirlər Kabineti yanında Operativ Qərargahın COVİD-19 infeksiyasının geniş yayılmasının qarşısını almaq üçün verilən son qərarından sonra daha 4 rayonda karantin nəzarət postları qurulub.**

"Trend"in məlumatına görə, artıq Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının giriş-çıxışları hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən nəzarətə götürülüb. Adıçəkilən rayonların girişlərində polis postları yaradılıb, postlara polis əməkdaşları cəlb edilib. Bununla yanaşı, adıçəkilən rayonların daxilindəki küçə və prospektlərdə də polis postları qurulub.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın sonuncu qərarı ilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu ilə yanaşı, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonları da COVİD-19 infeksiyasının yayıldığı ərazi elan olunub və həmin ərazilər narıncı zona elan edilib.

**Azərbaycan ordusunun mayın 18-dən 22-nə qədər davam edən irimiqyaslı əməliyyat-taktiki təlimləri ssenarisinə və təşkilinə görə ABŞ ordusunun təlimləri ilə müqayisə olunub. Belə müqayisəni hərbi tematika üzrə ixtisaslaşmış "We Are The Mighty" bloqunda Miguel Ortiz aparıb.**

# Məşhur bloger Azərbaycan ordusunun 18-22 may təlimlərini ABŞ ordusu ilə müqayisə etdi



## *Daşdəmir Əliyev: "Belə genişmiqyaslı təlimlərin dünyanın aparıcı ölkələri ilə müqayisə olunması təbiidir"*

Müəllif Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatına istinadla xatırladır ki, təlimlərdə 10 min nəfərə yaxın şəxsi heyət, 120 tank və zirehli texnika, 200 raket kompleksi, aviasiya vasitələri və pilotsuz uçan aparatlar iştirak edib.

Təlimlərin ssenarisinə əsasən, müxtəlif qoşun birləşmələrinin döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və həyata keçirilməsi, habelə kiçik və iri zərbə qruplaşmalarının imkanları sınaqdan keçirilib. Müəllif qeyd edir ki, Azərbaycan ordusunun hərbi təlimləri Birləşmiş Ştatlar ordusunun Kaliforniyadakı Fort-İrvin milli təlim mərkəzində və Los-Angelesdəki Fort-Polk poliqonunda planlaşdırılan təlimləri ilə müqayisə oluna bilər. Bölmələr həmin poliqonlardan hərbi əməliyyatların planlaşdırılması, taktika, hücuma hazırlığın yoxlanması üçün istifadə edirlər.

Lakin həmin poliqonlarda mart ayına planlaşdırılan təlimlər COVİD-19 qlobal pandemiyasına görə təxirə salınıb. Təlimlərdə iştirak etməli olan bölmələr pandemiya ilə mübarizə aparmaq üçün Vaşinqton qubernatorunun sərəncamına göndərilib.

Müəllif ABŞ-la Azərbaycan arasında münasibətlər, o cümlədən hərbi sahədə əməkdaşlıq barədə bəhs edir. Eyni zamanda qeyd olunur ki, ABŞ-dakı erməni diasporu Azərbaycan ordusunun təlimlərindən ciddi narahat olub və mayın 20-də Konqresin Nümayəndələr Palatasının ermənipərəst üzvü Frenk Pallone dövlət katibi Maykl Pompeo və müdafiə naziri Mark Esperə məktub yazaraq bu təlimlərə reaksiya verməyə çağırıb. Habelə, ABŞ-ın Azərbaycana 100 milyon dollarlıq hərbi yardım ayırmasından narahatlıq bildiriblər.

Azərbaycan ordusunun son hərbi təlimlərinə verilən yüksək qiymət nəyin əlaməti sayıla bilər?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan müstəqil ölkədir, hərbi doktrinasını özü müəyyən edir:"Müstəqil ölkə kimi, biz nə Ermənistandan, nə də onların havadarlarından icazə istəməliyik. Təlimlərin bir məqsədi var: bütün qoşun növlərinin birgə fəaliyyətini döyüş zamanı düzgün koordinasiya etmək. Həmin təlimlərdə yeni silahların sınaq atışları da həyata keçirilə bilər. Biz bu təlimləri gizli keçirmirik. Təlimlər başlamadan öncə bu barədə ölkəmizdə olan səfirliklərin nümayəndələrinə, hərbi attaşelərinə məlumat verilir. Bizim dövlət rəhbərliyi Ermənistana qarşı müharibə etməklə bağlı bəyanat verməyib. Ancaq biz bəyan edirik ki, işğal altında olan torpaqlarımızı istənilən vaxt işğaldan azad etməyə hazırıq. İşğalın arxasında Ermənistan durduğundan, onlar bu mövzuda narahatlıq keçirirlər. Ancaq bilsinlər ki, Azərbaycanın öz ərazilərini istənilən vaxt işğaldan azad etmək hüququ var. Biz bununla bağlı Ali Baş Komandanın əmrini gözləyirik".

Ekspertin sözlərinə görə, son təlimlərin xüsusi özəlliyi həm də bununla bağlıdır ki, gecə təlimləri ilə də bağlı ordunun imkanları nümayiş edilib:"Gecə təlimləri, əsasən düşmənə məhdud görünmə şəraitində gözlənilməz zərbənin vurulması və ona psixoloji təsirin yüksəldilməsi məqsədi daşıyır. Açıq görünüş olan gündüzdən fərqli olaraq, gecə vaxtı düşmənin obyektlərini görmək, hiss etmək, aşkarlamaq və təyin etmək üçün böyük miqdarda texniki vasitə və avadanlıqlar tələb olunur. Bunların da istifadəsi gündüzə nisbətdə daha çox vaxt və diqqət tələb edir. Dünya praktikasında bu kimi əməliyyatlar məhz qarşı tərəfin gözləmədiyi, yaxud daha ağır psixoloji çətinlik yaratdığı döyüş taktikasıdır. Burada düşmənin atəş nöqtələrinin, komanda mərkəzlərinin, silah və texnika anbar və saxlanclarının, aerodrom və infrastrukturların məhdud görünmə şəraitində təyin edilərək dəqiq atəşlə sıradan çıxarılması nəzərdə tutulur. Belə genişmiqyaslı təlimlərin dünyanın aparıcı ölkələri ilə müqayisə olunması təbiidir. Çünki belə arsenala yalnız güclü ordular malik ola bilər".

Hərbi ekspertin sözlərinə görə, Azərbaycan ordusunun təlimlərində işğal olunmuş ərazilərin azad olunması istiqamətində əməliyyatların və hazırlıqların aparılması kimi məsələlər bir nömrəlidir:"Bu da təbii haldır. Çünki Ermənistan ordusu tərəfindən Azərbaycanın 20 faizə yaxın ərazisi işğal edilib. Bu ərazilərin işğaldan azad edilməsi ilə bağlı təlimlərin keçirilməsi təbiidir. Ermənistan tərəfinin fikirləri beynəlxalq ictimaiyyət və təşkilatlarda Azərbaycan haqqında yanlış imic yaratmaq məqsədi daşıyır. Bunlar isə həqiqətə uyğun olmayan fikirlərdir".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan sülhsevərlik reytinqində mövqeyini xeyli yaxşılaşdırıb. Belə ki, Azərbaycan 2020-ci il üçün "Qlobal sülhsevərlik indeksi"ndə (Global Peace Index) 163 ölkə arasında 120-ci yeri tutaraq, mövqeyini 12 bənd yüksəldib. Bir sıra aparıcı ölkələrdən Azərbaycan öndədir.**

# Azərbaycan qlobal sülhsevərlik indeksində 12 pillə yüksəldi - 163 ölkə arasında 120-ci...



## *Yadigar Məmmədli: "Məlum hesabat Azərbaycanın beynəlxalq imicini daha da yüksəldəcək"*

Məsələn, Azərbaycanın ardınca 121-ci yerdə ABŞ qərarlaşıb. Rusiya 154-cü yeri, Ukrayna 148-ci yeri tutub.

Məruzə iyunun 10-da İqtisadiyyat və Sülh İnstitutu (IEP) tərəfindən dərc edilib. Azərbaycanın mövqeyi 12 bənd yüksəlib. Əsas problem Qarabağ münaqişəsi olaraq qalır.

14 ölkə ən sülhsevər ölkə kimi ("çox yüksək qiymət") tanınıb. Siyahıya İslandiya liderlik edir. Onun ardınca Yeni Zelandiya, Portuqaliya, Avstriya, Danimarka, Kanada, Sinqapur, Çexiya, Yaponiya, İsveçrə, Sloveniya, İrlandiya, Avstraliya və Finlandiya gəlir. Almaniya 2019-cu illə müqayisədə göstəricilərini bir qədər yaxşılaşdırıb (22-ci yerdən 16-cı yerə).

İqtisadiyyat və Sülh İnstitutunun təsisçisi Stiv Killelea bildirib ki, ümumilikdə, planetdə sülhsevərlik səviyyəsi ötən 12 ildə ikinci dəfə azalıb. Reytinq tərtib edilərkən üç müxtəlif kateqoriyada, o cümlədən, "cəmiyyətdə təhlükəsizlik", "davam edən münaqişələr" və "hərbiləşmə" kateqoriyasında 23 indikator nəzərə alınır. Birinci kateqoriyada, xüsusən, qətllərin səviyyəsinə, məhbusların sayına, polislərin sayına və cinayətkarlığın dərk edilməsinə diqqət yetirilir. Sonuncu meyar üzrə hərbi qulluqçuların sayı, ÜDM-ə nisbətdə silah xərcləri və silah ixracı dəyərləndirilib. Analitiklər dünyanın 160-dan çox ölkəsində vəziyyəti qiymətləndirirlər.

Bütövlükdə, Azərbaycanın qlobal sülhsevərlik indeksində mövqeyini 12 pillə yaxşılaşdırmasının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədlinin fikrincə, sözügedən hesabatda Azərbaycanın mövqelərinin daha da yaxşılaşması ölkəmizin müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsi deməkdir: "Sözügedən hesabat onu ortaya qoyur ki, bəzi beynəlxalq təşkilatların Azərbaycanla bağlı qərəzli hesabatları reallığı əks etdirmir. Hansı ki, həmin təşkilatların hesabatlarında ölkəmizlə bağlı qərəzli fikirlərin yer alması artıq ənənə halını alıb. Bu, xüsusən də insan haqları və söz azadlığından danışan bəzi təşkilatlara aiddir. Həmin qurumların Azərbaycanla bağlı mövqeləri bəllidir. Ancaq dünyada başqa ciddi qurumlar var. İqtisadi və digər məsələlərlə bağlı araşdırma aparan qurumlar var ki, bu təşkilatların hesabatları reallığı əks etdirir. Belə təşkilatlardan biri də İqtisadiyyat və Sülh İnstitutudur. IEP-nin hesabatı gerçək vəziyyəti ortaya qoyur. Reallıq ondan ibarətdir ki, Azərbaycanda həyata keçirilən islahatlar bir sıra sahələri əhatə edir və artıq öz nəticəsini də verir.

*"Ölkədə həyata keçirilən islahatlar bir sıra sahələri əhatə edir və artıq öz nəticəsini də verir"*

Bu yöndə ölkədə davamlı fəaliyyət var. Bütün bunlar kiməsə görə yox, Azərbaycanın inkişafına görə edilir. Baxın, Azərbaycan qlobal sülhsevərlik indeksi üzrə 163 ölkə arasında 120-ci yerdədir. ABŞ, Rusiya kimi ölkələrdən öndədir. Baxmayaraq ki, Azərbaycan müharibə vəziyyətindədir. Növbəti hesabatlarda Azərbaycan mövqelərini daha da yaxşılaşdıracaq. O baxımdan məlum hesabat Azərbaycanın beynəlxalq imicini daha da yüksəldəcək. Ölkədəki stabilliyə inam daha da artacaq. Çünki bu, ölkənin gerçək inkişaf dinamikasını ortaya qoyur və o üzdən, alqışlanası haldır".

***Vidadi ORDAHALLI***

# Rusiya mediası Paşinyan hökumətinin koronavirusla mübarizə "fəaliyyətinin" rüsvayçı nəticələrini bütün dünyaya faş etdi...

## Şakir Ağayev: "...bu yazılar da Ermənistanda vəziyyətin dəhşətli olduğunu çılpaqlığı ilə göstərir"




"Bu həm də Azərbaycanın bir daha haqlı olduğunu sübut edir"

**Ermənistanda koronavirusla mübarizə sahəsində heç bir iş görülmədiyi və Paşinyan hakimiyyətinin xalqı, eləcə də beynəlxalq aləmi aldatdığı, bu ölkəyə ayrılan yardımların mənimsənildiyi haqqında dəfələrlə danışmışıq. Artıq Ermənistan rəhbərliyinin yarıtmaz fəaliyyəti nəticəsində koronavirus infeksiyasının bu ölkədə ucu-bucağı görünməyən bir cəhənnəm yaratığı Rusiya mətbuatında da əsas mövzulardan birinə çevrilib.**

Rusiyanın "Lenta.ru" saytı yazır ki, ölkədə xəstəlik pik həddə keçib, ağır şəkildə olan xəstələrin sayı fantastik həddə yüksəlir, səhiyyə sisteminin resursları isə bunun müqabilində tükənmək üzrədir. "Hakimiyyət isə bütün bunların fonunda küçələrdə maska taxmayan vətəndaşları sosial şəbəkələrdə utandırmaqla məşğuldur. Vətəndaşlar da utanc hissi keçirməyə tələsmir, axı epidemiyanın lap əvvəlindən heç kim epidemioloji təhlükəsizlik qaydalarına əməl etmirdi", - deyə materialda bildirilir.

Baş nazir ötən həftəsonu koronavirusa yoluxduğunu, ardınca ölkədə epidemioloji fəlakət olduğunu bildirib. Ölkədə vəziyyət həqiqətən də pisləşib: bütün dünya məhdudiyyətləri aradan götürdüyü və xəstə sayı azalmağa doğru getdiyi halda, Ermənistanda xəstə sayı durmadan artır. Mayın 20-də ölkədə 5600 xəstə olduğu halda, bu gün xəstə sayı 15 minə yaxınlaşıb. Ölüm halı 160-dan 230-a çatıb. İsterik vəziyyətdə olan Baş nazir ölkədə xəstə sayının 100 min olduğunu bildirsə də, sonradan sözlərində bir qədər redaktə aparmağa məcbur olub.

Yaranmış durumda isə hakimiyyət vətəndaşları ittiham edir - Paşinyan bildirib ki, xalq kütləvi şəkildə təhlükəsizlik tədbirlərinə əməl etmir. Qaydaları pozanlara qarşı isə "Facebook" vasitəsilə mübarizə aparır, mütəmadi olaraq küçələrdə maskasız gəzən, sosial məsafə gözləməyən insanların fotolarını dərc edir. O, digər sosial istifadəçiləri bu əks-epidemioloji hərəkata qoşulmağa çağırıb. Hakimiyyət isə hər hansı bir tədbir görməyə tələsmir. Baş nazir artıq bildirib ki, hüquq-mühafizə orqanları epidemiya ilə mübarizəyə qoşulmayacaq. Çünki bu məsələni həll etməyə qadir güc strukturu yoxdur. "Biz kritik nöqtəyə çatdıq, cəhənnəmə doğru addmlayırıq", - deyə Baş nazir xəstə sayının kəskin atması qarşılığında bəyan edib. Doğrudan da, Baş nazirin təqdim etdiyi fotolarda insanların epidemiya dövründə adi elementar qaydalara əməl etmədən kütləvi şəkildə bir yerə toplaşdığını görmək mümkündür. Əlcək və maskalar yoxdur, olsa da onu çənədən aşağı salınmış vəziyyətdə taxırlar. Sanki ölkədə xəstə sayı pik həddə deyil.

Rusiya nəşri yazır ki, ölkədə fövqəladə vəziyyət rejimində həyat bir an olsun belə dayanmayıb, faktiki olaraq, İsveç ssenarisi ilə hərəkət edilib. Lakin Skandinaviya düşüncəsi ilə deyil, ermənilər daha çox soydaşlarının xəstələnməsi üçün hər şeyi etdilər. Məsələ ondadır ki, əhalinin böyük bir qismi virusa qeyri-ciddi yanaşır və bunun minimum iki səbəbi var. Birincisi, bir dalğadır, keçib gedəcək və qonşunun həyatına biganə yanaşmaq. İkincisi, populyar konspiroloji nəzəriyyə - koronavirus təhlükəsinin olmaması. Bəziləri isə hesab edir ki, bu virus adi soyuqdəymədir. Daha təhsilli vətəndaşlar isə əmindirlər ki, virusu Bill Geyts və yaxud "dünya qəsdçiləri" fikirləşib tapıblar.

"Lenta.ru" yazır ki, koronavirusla bağlı dezinformasiya xəbərlərini tibb işçiləri də yayırlar. Məsələn, İrəvan Ağsaqqallar Şurasının keçmiş üzvü, ixtisasca həkim Marine Xaçatryan bildirir ki, koronavirus bioloji silahdır. Ölkə əhalisinin təhsil səviyyəsinin də aşağı səviyyədə olduğu xüsusi vurğulanır - burada virusu bakteriyadan seçə bilmirlər. Əksər hallarda nəticə birdir - xəstələr xalq təbabəti ilə hərəkət edərək, məsələn, daha çox antibiotik qəbul etməyə çalışır. Antibiotiklərin artıq bir neçə ildir Ermənistanda sərbəst şəkildə satışı qadağan edilsə də, reallıqda bu qadağa qüvvədə deyil. Virusun sürətlə yayılmasında Baş nazirin də rolunun olduğu vurğulanır. Ölkənin ən populyar blogeri açıq efirdə epidemiya ilə məzələnərək bildirmişdi ki, bu koronavirus, ümumiyyətlə, itdir.

Məqalə müəllifi xüsusi vurğulayır ki, Baş nazir öz fəaliyyəti ilə vətəndaşlara pis nümunə olub. Məsələn, müsahibələrinin birində bildirib ki, koronavirusun öhdəsindən bir peyvəndlə qurtulmaq olar. Eləcə də işğal altında olan Azərbaycan torpaqlarında keçirilən "inauqurasiya" mərasimində iştirak edib. Təəccüblü deyil ki, Ermənistanda martda elan edilən ikihəftəlik sərt karantin qaydaları heç bir xeyir gətirmədi, amma iqtisadiyyata ciddi zərbə vurmuş oldu. Karantin rejimini pozanlara qarşı sanksiyalar tətbiq edilməyib, pozuntuların miqyası o qədər olub ki, polis hər məsuliyyətsiz vətəndaşı saxlasaydı, onda ölkənin yarısını həbs etmək gərək olardı. Paşinyanın milli fəlakət haqqında alarmistik (təşviş, həyəcan yaradan) bəyanatlarından sonra polis tam fəaliyyətsizlikdən aktiv fəaliyyətə keçdi. İndi insanları küçədə saxlayır, əllərini bağlayır və zorakı hallara yol verirlər. Rusiya nəşri yazır ki, təəssüf ki, onlar özlərinin amerikalı həmkarlarının acı təcrübəsini nəzərə almırlar. Sadə amerikalılar kimi, ermənilər də polis özbaşınalığından zara gəliblər.

Nəşr sonda bildirir ki, məhdudiyyətlər tətbiq edildikdən sonra ölkədə sosial və iqtisadi vəziyyətdən narazı olan insanların lokal etirazları start götürdü. Onsuz da ağır və kövrək vəziyyətdə olan erməni iqtisadiyyatı ikinci lokdaunu qarşılaya biləcəkmi - bu suala cavab vermək çox çətindir. Hakimiyyət xalqı, xalq da hakimiyyəti ittiham edir. Lakin bu da mövcud durumu dəyişmir. Hər iki tərəf günahkardır və hər iki tərəf də öz səhvlərini heç olmasa etiraf etməyə belə tələsmir. Bütün bunların fonunda isə gün ərzində koronavirus testlərinin 30-40 faizi pozitiv çıxır. Bu rəqəmlər həm yoluxanların ağlasığmaz dərəcədə çox olmasından və daha çox səhiyyə sisteminin iflasından xəbər verir.

"Novoe vremya" qəzetinin baş redaktoru, tanınmış siyasi icmalçı Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, Rusiya mətbuatının Ermənistandakı koronavirus "cəhənnəmi" haqqında yazdığı yazı bu ölkənin rəhbərliyinin yarıtmaz fəaliyyətinin ifşa edilməsində mühüm rol oynayacaq. Ş.Ağayev vurğuladı ki, Ermənistanda baş verənlərin Rusiya mətbuatında yer almasının əhəmiyyəti böyükdür. Bunun həm də indiyə qədər Azərbaycan mətbuatında Ermənistanda koronavirusla mübarizə məsələsində heç bir iş görülmədiyi ilə bağlı yazılanların təsdiqi olduğunu deyən Ş.Ağayev hesab edir ki, artıq Ermənistanın iç üzü açılıb. "Paşinyan özünün və ailə üzvlərinin də koronavirusa yoluxması ilə bağlı 3-4 günlük bir oyun oynamaq istədi, amma alınmadı. Bununla da o, ölkəsində karonavirus pandemiyasının geniş yayılması ilə bağlı yaranan biabırçı vəziyyəti gizlətmək niyyəti güdürdü. Ümumiyyətlə, Paşinyan Baş nazir kimi hakimiyyətə gələndə xalqa çoxlu vəd vermişdi, amma o, bunların heç birini yerinə yetirə bilmir, yetirə də bilməz. Yəni nə qədər ki, Paşinyan sələflərinin siyasətini həyata keçirir və Azərbaycan torpaqlarını işğalda saxlayır, öz işğalçılıq siyasətindən əl çəkmir, bu ölkədə kifayət qədər problem olacaq.

Rusiya mətbuatının Ermənistandakı koronavirusla bağlı problemləri işıqlandırması, bu ölkənin rəhbərliyinin aciz durumda olmasını qeyd etməsi sevindirici haldır. Rusiya mətbuatı Ermənistandakı koronavirus "cəhənnəmi" haqqında yazıbsa və bunu beynəlxalq ictimaiyyətə çatdırıbsa, bu, müsbət haldır. Bilirsiniz ki, Azərbaycan mətbuatı ardıcıl olaraq Ermənistandakı vəziyyətlə bağlı yazır, məlumat verir. Lakin bizim düzgün yazmağımıza baxmayaraq, dünya dövlətləri elə düşünə bilərdilər ki, Ermənistanla Azərbaycan arasında konflikt olduğu üçün biz qərəzlə yanaşırıq. Amma dünyanın böyük dövləti olan Rusiyanın mətbuat orqanının Ermənistandakı vəziyyəti yazması beynəlxalq aləmdə daha böyük əks-səda yaradacaq. Rusiya mətbuatının Ermənistanla bağlı yazdıqları həm də onu bir daha sübut etdi ki, Azərbaycan mediasının Ermənistanda koronavirusun dəhşətli mənzərə yaratdığı barədə yazdıqları qərəz deyil, həqiqətdir. Ermənilər əvvəllər xaricdəki erməni diasporunun dəstəyilə dünya dövlətlərindən yardım alıb yaşayırdılar. İndi isə dünyanın ən güclü dövlətlərinin belə, iqtisadiyyatı çöküb, böhran yaradıb. Bu da, təbii ki, bu günə qədər Ermənistanda olan, lakin ört-basdır edilən problemlərin çılpaqlığı ilə üzə çıxmasına gətirib çıxarıb. Ermənistanda koronavirusla bağlı problemlərin yaratdığı dəhşətlərin, təhlükələrin Rusiya mətbuatı tərəfindən qeyd edilməsi təqdirəlayiq haldır.

Rusiya mətbuatının yazdığı yazıların bütün dünyada effekti daha güclü olur və bu yazılar da Ermənistanda vəziyyətin dəhşətli olduğunu çılpaqlığı ilə göstərir. Bu həm də Azərbaycanın bir daha haqlı olduğunu sübut edir" - deyə Ş.Ağayev vurğuladı.

***İradə SARIYEVA***

# Paşinyanın Kanadada bahalı ev alması siyasi qalmaqalları artırdı...

**Ermənistanda koronavirus pandemiyası nəticəsində daha da ağırlaşan sosial-iqtisadi vəziyyət hakim qüvvəyə qarşı ictimai narazılığı gücləndirib. Bu arada Baş nazir Nikol Paşinyanın köhnə və yeni rəqibləri xeyli fəallaşıblar. Ermənistan Baş nazirinə qarşı ittihamlar artmaqdadır.**



## *Ramil Hüseynov: "Görünən odur ki, hər keçən gün Paşinyanın ətrafında həlqə daralır"*

"Qraparak" qəzetinin yazdığına görə, biznesmen- siyasətçi Qagik Çarukyanın məlum çıxışından sonra hökumətlə "Çiçəklənən Ermənistan" partiyası arasında gərginlik getdikcə artır. Çarukyanın açıqlaması "Mənim addımım" blokunun nümayəndələrini mənəvi sarsıntıya uğradıb. Qəzetin yazdığına görə, Paşinyan Çarukyanla son telefon danışığında ona qarşı hər hansı addım atanları məhv edəcəyini söyləyib. Lakin bu da müxalifətdə olan partiyanın nümayəndələrini ona qarşı hücumlardan çəkindirməyib. "Çiçəklənən Ermənistan" fraksiyasının digər üzvü Artyom Çarukyanın iddiası isə ölkəni əməlli-başlı qarışdırıb. O deyib ki, Paşinyan bir korrupsiya sövdələşməsi ilə cangüdənlərindən birinin bacısının adına Kanadada 3 milyon dollara ev alıb. Bundan sonra hakim "Mənim addımım" blokunun nümayəndələri ilə onların arasında mübahisələr daha da qızışıb. Vəziyyət o həddə çatıb ki, hökumət təmsilçiləri A.Çarukyanın iddialarının doğruluğunun yoxlanması tələbi ilə Baş Prokurorluğa müraciət ediblər.

Maraqlıdır ki, rusiyalı siyasi analitik Vitali Arkoiv də Kanada məsələsinə toxunub. Onun fikrincə, Ermənistanda özünü göstərən siyasi və iqtisadi böhran meylləri Paşinyanın xaricə qaçışı ilə nəticələnəcək. Onun hesablamalarına görə, Paşinyan-Akopyan ər-arvad cütlüyü və onların uşaqları üçün yeni vətən məhz Kanada ola bilər. Ekspert bunu onunla əsaslandırır ki, "çirkli pulları yumaq" üzrə mütəxəssis olan Anna Akopyan artıq bir neçə dəfə bu ölkədə olub və müvafiq "yuma sxemləri"ni sınaqdan çıxarıb. Söhbət həbsə atılmamaq qarşılığında köhnə məmurlardan alınan vəsaitlərdən və deputat olmaq istəyən oliqarxlardan qoparılan, habelə gəlirli sazişlərə çıxışa görə alınan pullardan gedir.

*"O, uzun müddət hakimiyyəti idarə edə biləcəyinə əmin olmadığı üçün xaricdə indidən mənzil alır"*

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun fikrincə, Paşinyan ətrafında dairə daralır: "Müşahidələr göstərir ki, koronavirus epidemiyasının Ermənistanda genişlənməsi, sosial-iqtisadi vəziyyətin ağırlaşması fonunda Paşinyana yönəlik tənqidlər artır. Hətta bir vaxtlar ona xüsusi yaxınlığı olan Qagik Çarukyanın indi açıq müstəvidə Paşinyanın üzərinə getməsi vəziyyətin ciddi olmasından xəbər verir. Görünən odur ki, hər keçən gün Paşinyanın ətrafında həlqə daralır. Bir tərəfdən ard-arda Paşinyanın qanunsuz ticarət fəaliyyəti ifşa edilir. Məlum olur ki, onun himayəsi ilə müəyyən şəxslər qanunsuz silah, brilyant, siqaret alveri ilə məşğuldurlar.

**Bununla bağlı mətbuatda yeni-yeni məlumatlar dərc olunur. Bütün bunlar, heç şübhəsiz ki, Ermənistan hakimiyyətini böhrana yuvarlaya bilər. Çox güman ki, Paşinyan Kanadaya qaçacaq. O, uzun müddət hakimiyyəti idarə edə biləcəyinə əmin olmadığı üçün xaricdə indidən mənzil alır. Yaxşı bilir ki, devriləndən sonra Ermənistanda yaşaya bilməyəcək".**

***Vidadi ORDAHALLI***

# Paşinyan cəmi birhəftəlik virus yoluxmasının ardınca siyasi kadr manevrlərinə başladı - yeni kadrların heç biri haqda yaxşı söhbətlər getmir...

**Paşinyan niyə bu qədər tez - koronavirusa yoluxduğunu elan etdikdən bir həftə sonra sağaldı və o dəqiqə ciddi ölkədaxili siyasi manevrlərə başladı? Ermənistanın "Fakt" qəzeti bu suallara cavab tapmağa çalışıb.**



## *Əli Orucov: "Paşinyan qorxur ki, güc strukturları onu hər an devirə bilər"*

Qəzet yazır ki, son aylarda Paşinyanın reytinqi sürətlə azalmaqdadır. Səbəb hakimiyyətin koronavirusla əlaqəli vəziyyətə nəzarət edə bilməməsidir. Bu fonda, Paşinyanın bütün hökumətlə birgə istefa tələbləri səslənməyə başladı. Buna görə Paşinyanın niyə bu qədər tez sağalması aydınlaşır: "Ancaq o, belə bir vəziyyətdə Baş nazirin haqlı və günahkar axtarmayacağını, sadəcə, cəmiyyətlə birləşmə və birgə fəaliyyət təklifi ilə müraciət edəcəyini irəli sürən insanların ümidlərini puça çıxardı. Lakin Paşinyan yalnız özünə sadiq qaldı və dərhal günahkar tapdı, üstəlik, hətta adlarını da dilə gətirdi. Onun sözlərinə görə, virus infeksiyasının yayılmasında maraqlı olan müxalifətin adını çəkməməsi qəribə olardı. Daha yalan və süni bir yanaşmanı təsəvvür etmək çətindir, ancaq Paşinyanın vəziyyətində bu cür şeylərə təəccüblənmək onsuz da çətindir".

Bununla yanaşı, qəzet güc strukturlarında yeni təyin edilən şəxslərlə bağlı maraqlı faktları sadalayıb: "Baş Qərargahın yeni rəhbəri Onik Qasparyan qonşu dövlətlərlə vəziyyətin genişmiqyaslı hərbi əməliyyatlara qədər gərginləşməsinə səbəb olacaq "şahin"dir. Polisin yeni rəhbəri Vaqe Kazaryan Cemrukdakı iğtişaşların son dərəcə qəddarlıqla yatırılmasında iştirak etdi və öz xalqına qarşı silahdan istifadə edə bilir. DTX-nin yeni rəhbəri Argişti Kyaramyan siqaret, brilyant və silah qaçaqmalçılığı ilə bağlı yaşanan qalmaqal fonunda, Paşinyan üçün xüsusilə zəruri olan qaçaqmalçılığı ört-basdır etmək üçün əldə edilən gəlirləri və əməliyyatları gizlətməkdə böyük təcrübəyə malikdir".

Göründüyü kimi, Paşinyanın və ailəsinin virusa yoluxması şübhə ilə qarşılanmaqla yanaşı, onun təyin etdiyi yeni kadrlarla bağlı qaranlıq məqamlar ortaya çıxır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun fikrincə, Paşinyan güc strukturlarında ona sadiq komanda formalaşdıra bilmir: "Ona görə də güc stukturlarına o qədər də etibar etmir. Məsələnin kökündə dayanan faktor ondan ibarətdir ki, Ermənistan güc strukturlarında Rusiyanın təsir imkanları kifayət qədər böyükdür. O üzdən, Paşinyanın yaxın perspektivdə bundan xilas olması real görünmür. Bu da təsadüfi deyil. Çünki Ermənistan forpost ölkədir. Orada Rusiya hərbi bazaları var və ümumiyyətlə, güc strukturlarında Kremlin təsir imkanları böyükdür. Paşinyan da bütün bunların fərqindədir və zaman-zaman

*"Bu səbəbdən istəyir ki, Rusiyaya loyal və ona sadiq olan şəxsləri həmin qurumların başına gətirsin, amma..."*

sözügedən məsələ onu narahat edir. 2018-ci ildə Ermənistanda "məxməri inqilab"dan sonra Paşinyan öz komandasını formalaşdırdı. Ancaq bir ildən sonra DTX sədri Artur Vanetsyan istefa verdi. Bununla belə, Paşinyana qarşı müxalifətə keçdi və indi onun ən sərt tənqidçilərindən biridir. Onun yerinə gələn Martirosyana da Paşinyan etibar etmirdi. Baş Qərargah rəisi Artak Davtyanla Paşinyan arasında ziddiyyətlərin olması barədə zaman-zaman erməni mediasında yazılar gedirdi. Davtyanın Rusiya hərbi dairələri ilə xüsusi yaxınlığı var. O üzdən, hansısa bəhanə ilə onun vəzifəsindən uzaqlaşdırılacağı gözlənilən idi. Paşinyan qorxur ki, güc strukturları onu hər an devirə bilər. Bu səbəbdən istəyir ki, Rusiyaya loyal və ona sadiq olan şəxsləri həmin qurumların başına gətirsin. Ancaq hələ ki, bu, onda alınmır. Çünki Ermənistanda belə kadrlar yox səviyyəsindədir. Onun son təyinatları göstərdi ki, yenilərinin qaranlıq keçmişi var. Məlum olur ki, sözügedən şəxslər Paşinyanın qanunsuz əməllərinə bu və ya digər dərəcədə ortaq olublar. Bu isə o qənaətə gəlməyə əsas verir ki, həmin şəxslər də kreslolarında uzun müddət otura bilməyəcəklər".

***Vidadi ORDAHALLI***

**Avropa Parlamentinin (AP) Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Basesku və AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurandın birgə bəyanatı qəbul edilib.**

# Avroparlamentdən Qarabağ problemi ilə bağlı misilsiz bəyanat - hətta Ermənistan üzrə məruzəçi...

## *Elşən Mustafayev: "Budəfəki birgə bəyanatın özəlliyi budur ki, həmin sənədə həm də Ermənistan üzrə məruzəçi imza atıb"*

Qeyd edək ki, Azərbaycanın işğal edilmiş ərazilərindəki qanunsuz fəaliyyətlə bağlı Avropa Parlamenti rəsmilərinin belə bir birgə sənədi ilk dəfədir qəbul edilir. Sənəddə Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllinə çağırış əks olunur.

Qeyd edək ki, bu bəyanatın qəbul olunması Nikol Paşinyanın və Ermənistanın ağır məğlubiyyəti sayıla bilər. AP-nin qəbul etdiyi bu qərar Azərbaycan üçün hansı əhəmiyyətə malik ola bilər?

Azərbaycan Milli İstiqlal Partiyasının beynəlxalq məsələlər üzrə katibi Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, Avropa Parlamenti adından qəbul edilən bu bəyanat bizim milli maraqlarımıza tam uyğundur:"Bu, sözügedən qurumun Dağlıq Qarabağ münaqişəsi çərçivəsində Azərbaycanın xeyrinə qəbul etdiyi ilk qərar deyil. Bundan əvvəl də qurum münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyinə işarə edən sənəd qəbul edib. Budəfəki birgə bəyanatın özəlliyi budur ki, həmin sənədə həm də Ermənistan üzrə məruzəçi imza atıb. Azərbaycan hər zaman tərəfdaş dövlətlərin ərazi bütövlüyünün, suverenliyinin və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının Avropa İttifaqı tərəfindən qəbul olunan sənədlərdə dəstəklənməsinin birmənalı şəkildə ifadə olunmasını tələb edib. Bütün münaqişələrin beynəlxalq hüquq normaları əsasında həll olunmasının bir prinsip olaraq qəbul edilməsi və bunun da sənədlərdə öz əksini tapması Azərbaycanın bütün beynəlxalq təşkilatlar qarşısında, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlıq edərkən irəli sürdüyü ən vacib şərtdir. Birgə bəyanat həm də Avropa Parlamentinin münaqişənin həllinə olan yanaşmasını ortaya qoymuş olur. Qəbul edilmiş birgə sənəddə Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllinə çağırış əks olunur. Ermənistan quruma "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq edir. Bu əməkdaşlıqda ölkələrin ərazi bütövlüyü, müstəqillik və suverenlik də daxil olmaqla, beynəlxalq hüquqa əsaslanan qaydalara riayət edilməsi ön plana çəkilir. Bunlar həm də Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" arasında əməkdaşlıqda ümumi öhdəliklər kimi qəbul olunur. Belə olan halda, Avropa İttifaqı Şurası tərəfindən qəbul edilən sənəddə ərazi bütövlüyü, müstəqillik və suverenlik prinsiplərinin qeyd edilməsi, bu prinsiplərin həm Avropa İttifaqı, həm də "Şərq Tərəfdaşlığı" ölkələri üçün ümumi və ortaq öhdəliklər olaraq müəyyən edilməsi olduqca vacib haldır.




Bununla Avropa İttifaqı bir daha Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini təsdiqləmiş olur. Biz bunu həm də Ermənistanın xarici siyasət kursunda "qazandığı" növbəti uğursuzluq kimi qəbul edə bilərik. Azərbaycan diplomatiyası bu vacib amildən məharətlə istifadə etməlidir. Belə qərarların dərhal icra mexanizmi olmasa da, diplomatik münasibətlər sistemində münaqişə tərəfləri üçün ciddi əhəmiyyət daşıyır".

***Məhəmmədəli QƏRİBLİ***

**Avropa Parlamentinin (AP) Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Traian Basesku və AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand Ermənistan və Dağlıq Qarabağı birləşdirəcək yeni magistral yolun tikintisi ilə bağlı birgə bəyanat yayıblar.**

# Avropa Parlamenti Ermənistanın Dağlıq Qarabağda işğalın nəticələrini qanuniləşdirmək cəhdlərini alt-üst etdi... işğal olunmuş ərazilər termini...



## *Elman Nəsirov: "Bu bəyanatın ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, AP-nin 3 təmsilçisi buna imza atıb və..."*

Birgə bəyanatda Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri çərçivəsində həllinə çağırış əks olunub. Ən başlıcası, işğal olunmuş ərazilərdə infrastruktur işlərinin aparılması pislənir: "Keçən il yaxın vaxtlarda Ermənistan və Dağlıq Qarabağı birləşdirən üçüncü avtomobil yolunun inşasının tezliklə başlayacağı elan edilmişdi. Bu yeni yol infrastrukturu işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarını keçərək Ermənistandakı Kapan rayonunu Dağlıq Qarabağın Hadrut rayonu ilə birləşdirəcək. Prinsip etibarilə biz Şərq Qonşuluğundakı regional əməkdaşlığı, əlaqələri və insanlar arasındakı əlaqələri inkişaf etdirən layihələri dəstəkləyirik. Lakin bu magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan alınıb və beynəlxalq hüquq pozulub. Bundan əlavə, bu addım Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını simvolik olaraq əhatə edə bilər. Buna görə də bu təşəbbüsdən çox təəssüflənirik, çünki bu, etimad, sülh və barışıq üçün mühit yaratmağa kömək etmir".

Göründüyü kimi, məlum bəyanatda Ermənistanın Qarabağdakı qanunsuz məskunlaşma siyasəti, infrastrukturun görüntüsünün dəyişdirilməsi və digər qanunsuz fəaliyyətlə işğalın nəticələrinin qanuniləşdirilməsi səyləri ifşa edilib.

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, bu bəyanatın özəlliyi ondan ibarətdir ki, onu Avropa Parlamentinin Azərbaycan, Ermənistan və AP-nin Azərbaycan, Gürcüstan üzrə məruzəçiləri və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri birgə imzalayıblar: "Bu bəyanatın ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, AP-nin 3 təmsilçisi buna imza atıb və Ermənistanın separatçı rejimə magistral yol çəkməsini pisləyirlər. Qarabağda infrastruktur işlərinin aparılmasını qanunsuz hesab edirlər. Hesab edirlər ki, bu addım Azərbaycanla razılaşdırılmadan atılan qanunsuz addımdır. Eyni zamanda, beynəlxalq hüquqa daban-dabana zidd bir addımdır.

**Bu çox önəmli məsələdir. Eyni zamanda, çox aydın şəkildə deyilir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Ümumilikdə, hesab edirəm ki, bu hadisə müəllifi Azərbaycan Prezidenti cənab İlham Əliyev olan diplomatiyamızın növbəti böyük qələbəsidir. Bununla belə, münaqişənin həllində Ermənistanın tutduğu qeyri-konstruktiv mövqeyə böyük zərbədir. Avropa Parlamenti çox nüfuzlu bir qurumdur. Bu, Azərbaycanın münaqişənin həlli ilə bağlı mövqelərini möhkəmləndirəcək bir addımdır".**

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Avropada Ermənistana daha bir mühüm diplomatik zərbə vurdu

**Ermənistanın işğalçı siyasətinin ifşa edilməsində Azərbaycanın atdığı addımalr bu gün öz effektiv nəticələrini verməkdə, düşmənin daha böyük fiasko ilə üzləşməsinə gətirib çıxarmaqdadır. Bu hal Avropa İttifaqı timsalında özünü yenidən qabarıq şəkildə büruzə verdi. Avropa bir daha açıq mətnlə Ermənistanın işğalçı olduğunu bildirərək, Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə etdi.**

Bütün bunlara əsas səbəb isə zəbt edilmiş ərazilərdə Ermənistanın daha bir yol çəkmək niyyətidir. Məsələ burasındadır ki, Ermənistandan Azərbaycanın işğal altındakı ərazilərinə üçüncü avtomagistralın çəkilişinə hazırlıq gedir. Bununla bağlı məsələ hələ ötən il gündəmə gətirilib. Bu yaxınlarda isə Dağlıq Qarabağdakı qondarma rejimin yeni "prezidenti" Araik Arutyunyan Azərbaycanın Arazboyu ərazilərini Ermənistanın Gorus rayonu ilə birləşdirmək üçün yeni avtomagistralın çəkilməsinə hazırlıq getdiyini deyib. Bundan əvvəl Ermənistanı Qarabağla Gorus-Laçın-Şuşa-Xankəndi və Vardenis-Kəlbəcər-Ağdərə magistralları birləşdirirdi. İkinci yolu Ermənistan bir neçə il əvvəl istifadəyə verib. Üçüncü və artıq Arazboyu Cəbrayıl, Füzuli, Zəngilan rayonlarını Ermənistanla birləşdirən yolun çəkilməsində düşmən ölkənin məqsədi isə həmin ərazilərdə qanunsuz məskunlaşmanı genişləndirmək, münbit kənd təsərrüfatı torpaqlarını istismar etməkdir. Rəsmi Bakı bütün bunları Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə böyük əngəl kimi qiymətləndirir. Bu fonda Azərbaycan düşmənin bədxah niyyətlərinə qarşı fəal diplomatik iş də aparır. Avropa Parlamentində son proseslər Azərbaycanın atdığı addımların öz məntiqi nəticəsini verdiyini göstərir. Belə ki, Avropa Parlamentinin Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Basesku və qurumun Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand Ermənistan və Dağlıq Qarabağı birləşdirəcək yeni magistral yolun tikintisi ilə bağlı birgə bəyanat yayıb. Birgə bəyanatda Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllinə çağırış əks olunub. Burada qeyd edilir:"Keçən il Ermənistan və Dağlıq Qarabağı birləşdirən üçüncü avtomobil yolunun inşasının tezliklə başlayacağı elan edilmişdi. Bu yeni yol infrastrukturu işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarını keçərək Ermənistanı Dağlıq Qarabağla birləşdirəcək.

Prinsip etibarı ilə biz Şərq Qonşuluğundakı regional əməkdaşlığı, əlaqələri və insanlar arasındakı əlaqələri inkişaf etdirən layihələri dəstəkləyirik. Lakin bu magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan alınıb və beynəlxalq hüquq pozulub. Bundan əlavə, bu addım Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını simvolik olaraq əhatə edə bilər. Buna görə də bu təşəbbüsdən çox təəssüflənirik, çünki bu etimad sülh və barışıq üçün mühit yaratmağa kömək etmir. Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinin səylərinə və onların 2009-cu ildə təsdiqlənən Əsas Prinsiplərinə dəstəyimizi bir daha bəyan edirik. Bu vasitəçiliyin uğur qazanması üçün biz Ermənistan və Azərbaycan hakimiyyətlərini Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində münaqişənin sülh yolu ilə həllinə dair danışıqlara öz öhdəliklərini gücləndirməyə çağırırıq". Birgə bəyanatda deyilənlərdən çox açıq görünür ki, Avropa Ermənistanın bu bəd niyyətinə qarşıdır. Çünki qəbul edilmiş birgə sənəddə Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllinə çağırış əks olunur. Qeyd edək ki, bu bəyanatın qəbul olunması, ekspertlərin fikrincə, Nikol Paşinyanın və ümumilikdə Ermənistanın ağır məğlubiyyətidir.

Burada onu da xüsusi qeyd etmək lazım gəlir ki, Avropa Parlamenti, Avropa İttifaqı səviyyəsində Azərbaycan son illərdə Ermənistana kifayət qədər sarsıdıcı zərbələr vurmağı bacarıb. Elə ötən ay Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra "Şərq Tərəfdaşlığı" siyasəti ilə bağlı yekun qərarı da Ermənistanda növbəti məğlubiyyət olaraq qəbul edildi. Xatırladaq ki, həmin qərarda Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramının strateji əhəmiyyətini və ümumi rifah, demokratiya və sabitlik üçün ümumi məkan qurmağa sadiqliyini təsdiq edərək, 2020-ci ildən sonrakı dövr üçün "Şərq Tərəfdaşlığı" ölkələrinə münasibətdə siyasətə dair nəticələri təsdiqləyib. Qurum qərarda "Şərq Tərəfdaşlığı"nın bu günə qədər əldə etdiyi mühüm uğurları alqışlayır və proqrama qoşulan ölkələri islahatları davam etdirməyə, bu istiqamətdə səyləri artırmağa təşviq edən vasitə kimi stimul və şərtlərə əsaslanan yanaşmasını təsdiqləyir. Digər məqamlarla yanaşı, Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də yekun qərarda münaqişələrin nizamlanması məsələsinə dair bəndlərdir. Qərarda "Şərq Tərəfdaşlığı" ideyasının həm siyasi-hüquqi aspektləri, həm də "Şərq Tərəfdaşlığı" çərçivəsində fəaliyyətin əsasını təşkil edən prinsiplər əks edilib. Burada "Şərq Tərəfdaşlığı" çərçivəsində fəaliyyətlərin əsasını müəyyənləşdirən ümumi qarşılıqlı öhdəliklər təsvir olunub. Ən əhəmiyyətli digər məqam əməkdaşlıq prinsipləridir. Bu prinsiplərə görə, "Şərq Tərəfdaşlığı" ölkələrində ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara riayət edilməsi ön plana çəkilir. Bunlar həm də Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" arasında əməkdaşlıqda ümumi öhdəliklər kimi qəbul olunur. Belə olan halda, Avropa İttifaqı Şurası tərəfindən qəbul edilən sənəddə ərazi bütövlüyü, müstəqillik və suverenlik prinsiplərinin qeyd edilməsi, bu prinsiplərin həm Avropa İttifaqı, həm də "Şərq Tərəfdaşlığı" ölkələri üçün ümumi və ortaq öhdəliklər olaraq müəyyən edilməsi olduqca vacib haldır. Eyni zaman Azərbyacnın milli maraqlarına da tamamilə uyğundur. Çünki Avropa İttifaqı bununla bir daha Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini təsdiqləmiş olur. Beləliklə, Avropa İttifaqı Şurası yekun qərarında Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyan prinsipləri yenidən vurğulayır. Maraqlıdır ki, bundan öncəki sənədlərindən fərqli olaraq, Avropa İttifaqı Şurası ilk dəfə olaraq öz sənədində ərazi bütövlüyü, müstəqillik və suverenlik prinsiplərini, beynəlxalq nizama və beynəlxalq hüquqa əsaslanan qaydaları "ortaq öhdəlik" kimi qiymətləndirir və Avropa İttifaqı üçün strateji xarakter daşıyan "fundamental dəyərlər"lə bir siyahıda qeyd edir. Xatırladaq ki, Azərbaycan həmişə tərəfdaş dövlətlərin ərazi bütövlüyünün, suverenliyinin və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının Avropa İttifaqı tərəfindən qəbul olunan sənədlərdə dəstəklənməsinin birmənalı şəkildə ifadə olunmasını tələb edib. Bakı dəfələrlə bildirib ki, bu tələb hər zaman qüvvədə olacaq. Eləcə də bütün münaqişələrin beynəlxalq hüquq normaları əsasında həll olunmasının bir prinsip olaraq qəbul edilməsi və bunun da sənədlərdə öz əksini tapması Azərbaycanın bütün beynəlxalq təşkilatlar qarşısında, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlıq edərkən irəli sürdüyü ən vacib şərtdir. O da məlumdur ki, Şura "Şərq Tərəfdaşlığı" regionunun bəzi ölkələrində beynəlxalq hüquq pozuntularının davam etməsindən dərin narahatlığını ifadə edərək, münaqişələrin qarşısının alınması, etimadın yaradılması və razılaşdırılmış danışıq formatları və prosesləri çərçivəsində münaqişələrin danışıqlar vasitəsilə sülh yolu ilə həllini dəstəklədiyini bəyan edib. Azərbaycan bunu alqışlasa da, qərar işğalçı Ermənistanın mövqeyinə ziddir. Çünki hər zaman Ermənistan ərazi bütövlüyü məsələsini aqressiya ilə qarşılayır və işğalçı siyasətini davam etdirməyə çalışır. Lakin indiki halda sözügedən Şuranın qərarında ərazi bütövlüyü məsələsinin təsbit olunması Ermənistanın işğalçı mövqeyinə ciddi zərbə vurur. Bu sənəd Azərbaycan diplomatiyasının növbəti ciddi uğuru, Ermənistanın isə diplomatik cəbhədə daha bir məğlubiyyəti oldu. İndi bunun ardınca Ermənistan və Dağlıq Qarabağı birləşdirəcək yeni magistral yolun tikintisi ilə bağlı birgə bəyanat Azərbaycanın daha bir zəfəri sayılır. Beləliklə, Azərbaycanın hücum diplomatiyası növbəti dəfə işğalçı Ermənistana ciddi zərbə vurdu. Burada bir daha xatırlatmaq lazım gəlir ki, Azərbaycanın siyasi rəhbərliyi və xüsusən də Avropa İttifaqı institutlarında təmsil olunan nümayəndə heyətinin üzvləri daimi olaraq tribunalardan ittifaqı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyin ortaya qoyulması və problemin çözümündə daha fəal rol oynamağa çağırırlar. Azərbaycan tərəfinin apardığı işin əhəmiyyətindən asılı olaraq Avropada Dağlıq Qarabağ münaqişəsinin fəsadlarının aradan qaldırılması və humanitar problemlərinin həll olunması istiqamətində bəyanatlar, konkret sənədlər, müraciətləri qəbul olunur. Avropa Ittifaqından Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan cəmiyyətinin gözləntilərinin doğrulması da qurumun özünün regionda maraqlarının reallaşması baxımından böyük önəm kəsb edir. Bunlar fonunda da Azərbaycanın Ermənistan üzərində yeni mühüm diplomatik qələbələrə imza atması özünü qabarıq şəkildə göstərir. Belə vəziyyət Ermənistanın işğalçı siyasətinə də ciddi zərbə sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənilər bizim alban kilsələri ilə bağlı çirkin oyunu Samtsxe-Cavaxetidə gürcü kilsələri ilə oynamağa başlayıb

## *Qasım Hacıyev: "Ermənilər Azərbaycan və Gürcüstanda xristian abidələrini saxtalaşdırmaqla..."*

**Çar Rusiyası tərəfindən bir sıra ermənipərəst Qərb dövlətlərinin dəstəyilə Cənubi Qafqaza köçürülən haylar Azərbaycan ərazilərindəki alban xristian abidələrinə qarşı həyata keçirdikləri haylaşdırma və saxtalaşdırma kampaniyasını son zamanlar Gürcüstanda da həyata keçirməyə başlayıblar.**

Cənubi Qafqazın iki köklü yerli xalqı olan Azərbaycan türklərinin və gürcülərin hay məkrilə üzləşməsi böyük tarixi problemdir, uzun illərdir bundan yaxa qurtarmaq mümkün deyil.

Bu gün haylar-ermənilər Gürcüstanın bir çox yerində olan Azərbaycan türklərinə məxsus qədim alban xristian abidələrini də haylaşdırdıqdan sonra indi də Samtsxe-Cavaxetidəki gürcü kilsələrini erməniləşdirməyə başlayıblar. Onlar burada gürcü kilsələrinin quruluşunu dəyişməklə, yaxud onları uçurub yerində Qriqoryan kilsəsi tikməklə böyük cinayətlər edirlər.

Gürcü tarixçi, Suxum Dövlət Universitetinin professoru Quram Marxuliya "Report"un yerli bürosuna açıqlamasında ermənilərin bu bölgədə gürcülərə məxsus abidələri dağıtdığını deyib. "Samtsxe-Cavaxeti bölgəsində yerləşən Qoman kəndindəki abidəni ermənilər qəsdən dağıdıblar".

Onun sözlərinə görə, hazırkı "Surb Qriqor Lusavoriç" erməni kilsəsi gürcü kilsəsinin fundamenti üzərində tikilib: "Ermənilərin özləri həmin kilsəni bərpa etmək adı altında erməniləşdiriblər. İndi isə məbədi qəsdən və məqsədyönlü şəkildə uçururlar. Bu, gürcü kilsələrinin ermənilər tərəfindən mənimsənilməsi, ermənilərin bu ərazilərdə məskunlaşması tarixini təhrif etmək məqsədi daşıyır".

Tarixçi hesab edir ki, digər məqsəd ermənilər və gürcülər arasında dini zəmində gərginlik yaratmaqdır: "Gürcülər və azərbaycanlılar arasındakı münasibətləri sarsıda bilməyənlər indi də bu təxribatlara əl atırlar. Ermənilər öz geosiyasi ambisiyalarının qurbanına çevriliblər. Ermənistan mətbuatı məbəd ərazisində qanunsuz aparılan qazıntı işlərini gürcülərin müqəddəs yeri təhqir etmələri kimi təqdim edir. Gürcüstanda müqəddəs yerlər hansı dinə mənsubluğundan asılı olmayaraq, heç vaxt nə təhqir oluna, nə də dağıdıla bilər. Bu, mümkün deyil".

Q.Marxuliya deyib ki, Samtsxe-Cavaxeti bölgəsində kilsə ilə bağlı son yaşananlar ilk belə hadisə deyil: "Belə ki, 2017-ci ilin sentyabrında Kumurdo kəndində yerli ermənilər bərpası davam etdirilən kilsənin ərazisinə zorla daxil olmağa cəhd ediblər və nəticədə polislə qarşıdurma baş verib. Onların məqsədi məbəd ərazisində xaçkar quraşdırmaq idi. Son baş verən hadisə də bu prosesin davamıdır. Harada yaşamasından asılı olmayaraq, ermənilər həmin yerlərdə xaçkarlar quraşdırmağa cəhd edirlər. Bununla da onlar dünya ictimaiyyətini inandırmağa və şübhələndirməyə çalışırlar ki, iddia etdikləri torpaqlar guya ermənilərə məxsus olub. Tarixən gürcü çarları və xalqı ermənilərə sığınmaq üçün torpaqlar verib və onların normal yaşamaları üçün bütün imkanları yaradıblar. Lakin görünən odur ki, ermənilər nə xristian, nə də müsəlmanlarla birgə yaşaya bilirlər".

Bunu gürcü tarixçisi deyir. Burada əsl gizlənən məqam ondan ibarətdir ki, ermənilər yerli xalqların tarixi irsinə təcavüz etməklə özlərinin Cənubi Qafqazda "yerli əhali" olduğunu göstərməyə cəhd edirlər. Yoxsa, onların bundan başqa nə niyyəti ola bilər ki? Ermənilər Cənubi Qafqaza köçürüldükdən sonra əsasən Azərbaycan ərazilərində məskunlaşdırılıb, xeyli hissəsi isə Gürcüstan torpaqlarında yerləşdirilib. Əlbəttə, həmişə satqın, xain, iri dövlətlərə nökərçilik edən ermənilər bu ərazilərə məqsədli şəkildə yerləşdirilib. Onları burada yerləşdirənlər o dünyada olsalar da, ermənilər bu dünyada ziyankarlıqla, başqa xalqların mədəniyyətini, abidəsini, torpaqlarını mənimsəməklə məşğuldurlar.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin niyyəti Cənubi Qafqazdakı bütün xristian abidələrini saxta yollarla erməniləşdirmək və guya burada yerli xalq olduqlarını "sübut" etməkdir. "Doğrudan da ermənilər bütün XX əsr boyu başqa ölkələrdən dilənib yığdıqları ianələrlə, müxtəlif cinayətkar qruplaşmalara, mafiyalara qoşulub əldə etdikləri gəlirlərlə ancaq özlərinin Cənubi Qafqazda "yerli xalq" olduqlarını "sübut" etmək üçün təbliğat işləri ilə məşğul olublar. Onlar hazırda da bununla bağlı planlar tutur, kitablar çap etdirir, saxta xəritələr cızdırır, filmlər çəkdirirlər. Ermənilərin işi saxtakarlıqdan, təcavüzdən və böhtandan ibarətdir. Bunu özü də vaxtilə ərazilərində məskunlaşdıqları, onlara sığınmaq üçün yer verən, qonşuluğunda yaşamağa şərait yaradan xalqlara, dövlətlərə qarşı edirlər. Onların ən böyük siyasəti antitürk siyasətidir. Eyni zamanda, onlar Egey dənizindən tutmuş, Qafqaza qədər hansı dövlətlərdən sığınacaq alıblarsa, həmişə onlara qarşı xəyanət ediblər, bu yerlərdə "yerli xalq" olduqlarını "sübut" etməyə çalışıblar. Məlumdur ki, ermənilərin "qədim mənbə" adlandırdıqları bir çox mənbə var ki, onları dönə-dönə çap edirlər. Amma onların heç birində əvvəllər "erməni dövləti" anlayışı belə yoxdur. Yəni o mənbələrdə erməni xalqı haqqında məlumat verilir, amma sonrakı "tarixçilər" isə "erməni dövləti" kimi qələmə vermək istəyirlər. Gec də olsa, onlar bu işi çox böyük sürətlə görməyə çalışırlar. Bilirsiniz ki, yerləşdikləri Azərbaycan ərazilərini "öz dövlətləri kimi" qələmə verməyə çalışırlar - İrəvanı, Qarabağı və digər ərazilərimizi. XIX əsrin əvvəllərindəki Azərbaycan iki yerə böləndü və Şimali Azərbaycana gətirib erməniləri yerləşdirdilər. O vaxt bizim torpaqlara onlar həm İran, həm də Türkiyə ərazisindən köçürülürdülər. İrandan gələnlər daha çox Azərbaycanın Qarabağ torpaqlarında, Türkiyədən köçürülən ermənilər İrəvan vilayətində, İrəvan xanlığının torpaqlarında, onların bir qismi isə Gürcüstan ərazisində yerləşdirilirdi.

Cavaxetiya bölgəsində yerləşdirilən ermənilər o vaxtdan müxtəlif şəkildə öz ərazilərini genişləndirmək, özlərini "yerli xalq" hesab etmək üçün çoxlu təbliğat vasitəsinə əl atdılar, o cümlədən, kitablar, məqalələr yazdılar, digər fəaliyyətlər göstərdilər. Əvvəllər İlya Çavçavadze "Ağlayan daşlar" əsərini yazıb göstərdi ki, ermənilər Gürcüstanda nə qədər saxtakarlıqlar ediblər. Ermənilər Azərbaycanın müxtəlif yerlərində, o cümlədən də Dağlıq Qarabağda etdikləri kimi, Gürcüstanda da "bərpa" adı ilə kilsələri erməniləşdirir, xaç daşları qoyur, kilsə və digər abidələrin üzərindəki yazıları silib yerinə ermənicə yazırlar. Onlar bu terroru Azərbaycan abidələrinə qarşı da həyata keçiriblər. Ermənilər Azərbaycan və Gürcüstanda xristian abidələrini saxtalaşdırmaqla, onların üzərindəki qədim yazıları pozub əvəzinə ermənicə qondarma yazılar yazmaqla "sübut" etmək istəyirlər ki, guya "bu abidələr ermənilərə məxsusdur" və ermənilər də "Cənubi Qafqazın qədim sakinləridir".

Q.Hacıyev vurğuladı ki, təkcə İlya Çavçavadze deyil, digər gürcü mütəfəkkirləri, tarixçiləri də erməniləri ifşa ediblər. Professorun sözlərinə görə, gürcü tarixçiləri də sonradan ayılıb və ermənilərin xislətini, mahiyyətini ifşa edirlər. Ermənilərin mehribanlıq gördükcə, onlara mehribanlıq göstərən xalqlara qarşı xəyanətkar mövqe tutduqlarını xatırladan Q.Hacıyevin sölərinə görə, buna nümunə üçün hazırkı durumu göstərmək olar. "Bu dövlətlər ermənilərə yer veriblər ki, yaşasınlar, torpaq iddialarından əl çəksinlər, amma, göründüyü kimi, onlar bundan heç vaxt əl çəkməyiblər. Ermənilərin hazırda Gürcüstanda gürcü abidələrinə, kilsələrinə qarşı həyata keçirdikləri təcavüz yalnız "özlərinnin burada yerli xalq olduqlarını" dünyaya çatdırmaq məqsədi daşıyır. Bu saxtalaşdırma siyasətinin kökü Sovet dövrünə gedib çıxır. Gürcülər bu kilsələri nə qədər mühafizə etsələr də, yenə ermənilər imkan düşən kimi o kilsələrin quruluşunu dəyişərək erməniləşdiriblər. Xaricdəki erməni diaspor təşkilatlarından və bir sıra Qərb dövlətlərindən dəstək görən ermənilər bu çirkin oyunlarını Azərbaycan və gürcü xalqına qarşı oynayır, bununla həm də bizə və gürcülərə mənfi münasibət bəsləyən mənfur dövlətlərin sifarişlərini yerinə yetirir, siyasətlərini həyata keçirirlər.

**Son dövrlər məşhur gürcü tarixçiləri, professor Quram Marxuliya və digərləri bizim Qafqazşünaslıq İnstitutunun keçirdiyi simpoziumlara, konfranslara qatılıb, çıxışlar ediblər. Hər dəfə onlarla söhbətimizdə gürcü alimləri ermənilərin anti-Azərbaycan və anti-gürcü siyasətlərini pisləyiblər. Çünki əsrin əvvəllərində, hətta gürcülərin azərbaycanlıların tərəfində olduqları vaxtda da belə ermənilər gürcüləri qızışdıraraq, onları bizimlə münasibətləri pozmağa təhrik ediblər. Buna cəhdlər ediblər. Bu gün Gürcüstanda nə qədər erməni təşkilatı var, onların əksəriyyəti əvvəllər gizlin, indi isə aşkar şəkildə azərbaycanlılarla gürcülərin arasında münasibətləri pozmaqdan ötrü çox şey edirlər" - deyə Q.Hacıyev vurğuladı.**

*İradə SARIYEVA*



## *"...bizə və gürcülərə mənfi münasibət bəsləyən mənfur dövlətlərin sifarişlərini yerinə yetirirlər"*

**2020-ci ilin yanvar-may aylarında Azərbaycanın iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş vəsait ötən ilin eyni dövrü ilə müqayisədə 2,8 faiz azalaraq 4 907,6 milyon manat təşkil edib. Hesabat dövründə qeyri neft-qaz sektoruna investisiya qoyuluşları 16,7 faiz azalaraq 2 606,4 milyon manat, o cümlədən, qeyri neft-qaz sənayesinə investisiya qoyuluşları 31,7 faiz azalaraq 366,8 milyon manat təşkil edib.**

*”...bizdə investisiya qoyuluşunun azalması elə də böyük deyil”*

# Koronavirus dövründə inkişaf etmiş ölkələrdə investisiya qoyuluşu 10-20, Azərbaycanda cəmi 2,8 faiz azalıb...

***Ruslan Atakişiyev:** ”Həmin ölkələrdən fərqli olaraq, Azərbaycan iqtisadiyyatında daxili investisiyaların payı daha böyükdür”*

O da məlumdur ki, koronavirus pandemiyası ilə əlaqədar bu il əksər ölkədə iqtisadiyyata qoyulan investisiyalar daha çox azalıb. Bir sıra ölkələrdə, hətta inkişaf etmiş dövlətlərdə azalma 10-20 faiz arasında dəyişir. Xüsusən Çin iqtisadiyyatına qoyulan xarici sərmayələrdə ciddi azalma var. Ancaq bu ilin 5 ayında Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu cəmi 2,8 faiz azalıb ki, bu da digər ölkələrlə müqayisədə kiçik rəqəmdir. İqtisadiyyatı və ixracı şaxələndirməklə neft-qaz gəlirlərindən asılılıq səviyyəsinin azaldılmasına nail olmaq istəyən Azərbaycan üçün qeyri-neft sektoru sahələrinə, xüsusilə emal sənayesinə birbaşa xarici investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə də bir sıra işlər görülür. Lakin koronavirus pandemiyası bütün ölkələrə təsir etdiyi kimi, Azərbaycana da təsirsiz ötüşmür. Bütün bunlara rəğmən, iqtisadiyyata investisiya qoyuluşunun 2,8 faiz azalması elə də böyük rəqəm deyil.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev buna bir neçə aspektdən yanaşdı. Onun fikrincə, bu məsələdə digər ölkələrə baxanda Azərbaycan nisbətən yaxşı vəziyyətdədir: "Elə ölkələr var ki, orada xarici sərmayələrin payı daxili investisiyalarla müqayisədə daha böyükdür. Pandemiya həmin ölkələrə bu baxımdan daha çox öz təsirini göstərib. Nəticədə iqtisadiyyata sərmayə qoyuluşunun azalması



daha böyük rəqəmlərlə ölçülür. Həmin ölkələrdən fərqli olaraq, Azərbaycan iqtisadiyyatında daxili investisiyaların payı daha böyükdür. Daxili investisiyalar əsasən dövlət vəsaiti hesabına təmin edilir. Bu səbəbdən bizdə investisiya qoyuluşunun azalması elə də böyük deyil.

Çinə qoyulan sərmayənin həcmi orta hesabla 74 milyard dollardır. Birləşmiş Ərəb Əmirliyində bu, 16 milyard dolları ötür. Ancaq həmin ölkələrə qoyulan sərmayələrdə xarici investorların payı böyükdür. Bununla yanaşı, sözügedən ölkələrə qoyulan sərmayə böyük olduğuna görə azalma da böyük rəqəmlərlə ölçülür. Bir məsələni də nəzərə almaq lazımdır ki, Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına tam inteqrasiya olunmayıb. Elə ölkələr var ki, orada ÜDM-in hardasa 50 faizi xarici ticarət hesabına formalaşır. Bu kimi ölkələrdə sərmayələrin azalması daha çox özünü göstərir".

***Vidadi ORDAHALLI***

**Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin yanvar-may aylarında Azərbaycanda aqrar sektorda artım qeydə alınıb. Qeyd olunur ki, cari ilin ilk beş ayında 2 165,1 mln. manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,6% çoxdur.**

*”...proqnozdan əlavə 500 milyon manat vəsaitin büdcəyə daxil olması...”*

# Koronavirus dövründə Azərbaycanı müsbət xarakterizə edən daha bir fakt - aqrar sektorda 4 faizə yaxın artım...

***Tahir Mirkişili:** ”Aqrar sektorda istehsalın 3.6 faiz artması indiki bu çətin şəraitdə mühüm nailiyyətdir”*

Hesabat dövründə kənd təsərrüfatının 79,5%-ni təşkil edən heyvandarlıq məhsullarının istehsalı 1 721,9 mln. manat təşkil edib ki, bu da 2019-cu ilin analoji ayları ilə müqayisədə 3,2% çoxdur.

Bitkiçiliyə gəldikdə isə, hesabat dövründə 443,2 mln. manatlıq məhsul istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5,3% çoxdur.

Cari il ərzində aqrar sektorda qeydə alınan artım barədə fikir bildirən millət vəkili Tahir Mirkişili qeyd etdi ki, aqrar sektorda istehsalın 3.6 faiz, o cümlədən, bitkiçilikdə məhsul istehsalının 5.3 faiz, heyvandarlıqda məhsul istehsalının 3.2 faiz, iqtisadiyyata kredit qoyuluşlarının 16.4 faiz artması indiki bu çətin şəraitdə mühüm nailiyyətdir.

Eyni zamanda, inflyasiyanın 2.9 faiz olması və orta aylıq əməkhaqqının artaraq 740 manata çatması əhalinin maddi rifahının artması baxımından yaxşı göstəricidir.

**Millət vəkili onu da əlavə etdi ki, büdcə gəlirlərinin artması, proqnozdan əlavə 500 milyon manat vəsaitin büdcəyə daxil olması əhalinin maddi rifah halına əsas təsir edəcək sosial xərclərin icrası üçün mühüm maliyyə zəmini yaratmaqdadır:** "Bu ilin büdcəsində də ən



böyük hissəsi (40%-ə yaxın) zatən sosial xərclərdir.

**İnflyasiyanın minimum həddə olması və orta aylıq əməkhaqqının artması da mühüm sosial-iqtisadi nəticədir. İqtisadiyyatın ən çox islahatlara məruz qalan sahələrində indiki şəraitdə belə artımın qeydə alınması, ÜDM-də azalma tempinin az olması onu deməyə imkan verir ki, Azərbaycanın pandemiya böhranından minimum itkilərlə çıxmağa iqtisadi imkanları mövcuddur".**

***Günel CƏLİLOVA***

# Azərbaycan yenə iqtisadi uğur nümunəsi ortaya qoyur - postpandemiya dövrü üçün optimist proqnozlar...

**Artıq yarım ildən çoxdur ki, koronavirus infeksiyası dünya iqtisadiyyatına da çox ciddi ziyan vurmaqdadır. Qlobal iqtisadiyyatın 5 faizdən çox kiçilməsi indi dünya miqyasında ciddi təhdid kimi qarşılanır.**

Buna rəğmən, pandemiyanin nə qədər çəkəcəyi və dünya dövlətləri üçün bundan sonra hansı ağır fəsadlar törədəcəyi bəlli deyil. Bir çox nüfuzlu beynəlxalq qurumlar pandemiya ilə bağlı araşdırmalar apararaq, proqnoz və təkliflər irəli sürürlər. Belə təşkilatlardan biri mənzil-qərargahı Cenevrədə yerləşən Dünya İqtisadi Forumudur.

Qurumun rəhbərliyi hesab edir ki, pandemiyanın qlobal iqtisadiyyata mənfi təsirləri gözlənildiyindən daha çox və uzunmüddətli ola bilər. Bu durumda dünya iqtisadiyyatında mühüm yer tutan ölkələrin böyük əksəriyyətinin artıq ciddi çətinliklər, iqtisadi geriləmə yaşaması özünü qabarıq büruzə verir. ABŞ, Çin, Avropa İttifaqı, ümumiyyətlə dünyanın, demək olar ki, bütün ölkələrində iqtisadi geriləmə qeydə alınır. Amma bu geriləmə ölkələr üzrə də fərqlənir. Məsələn, Azərbaycanda iqtisadi geriləmə digər ölkələrlə müqayisədə azdır. Hesablamalar göstərir ki, cari ilin yanvar-may aylarında Azərbaycanda 27 milyard 479,9 milyon manat dəyərində ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,7% azdır. Halbuki, inkişaf etmiş ölkələrdə azalma 5-7 faiz intervalında qeydə alınır. Digər tərəfdən beynəlxalq qurumlar da MDB məkanında Azərbaycanın iqtisadi durumunun daha yaxşı olduğunu bildirir.

Burada xatırladaq ki, bu ilin ilk iki ayında ÜDM-də 2,8 faizlik artıma nail olunub. Lakin cari ilin mart ayından etibarən koronavirus pandemiyasının iqtisadiyyata təsiri hiss olunmağa başlayıb və iqtisadi artım zəifləyib. İlkin rəqəmlərə görə, bu müddətdə ölkə iqtisadiyyatının gündəlik itkiləri 120-150 milyon manat təşkil edib. Nəticədə, 2020-ci ilin ilk 5 ayının yekunları göstərir ki, ÜDM keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz azalıb. Amma müsbət məqamlar ondan ibarətdir ki, bu müddətdə qeyri neft-qaz sənayesi 14 faiz, informasiya və rabitə xidmətləri 4,5 faiz, kənd təsərrüfatı 3,6 faiz artıb. Bu fonda ilkin rəqəmlərin təhlili onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı koronavirus pandemiyasının yaratdığı böhranı minimum itkilərlə keçir. Hesablamalar göstərir ki, qeyri neft-qaz sənayesində, kənd təsərrüfatında artım ilin sonunadək davam edəcək. Dünya Bankının 2020-ci illə bağlı açıqladığı son proqnozdan da görünür ki, MDB ölkələri arasında Azərbaycan bu böhrandan daha az itki ilə çıxacaq 3 ölkədən biridir. Belə ki, Dünya Bankı bu il Rusiyada 6 faiz, Belarusda 4 faiz, Qazaxıstanda 3 faiz, Ermənistanda 2,8 faiz azalmanın olacağını proqnozlaşdırır. Həmçinin Ukraynada 3,5 faiz, Gürcüstanda isə 4,8 faiz azalma gözlənilir. Cari ildə Azərbaycanda isə 2,6 faiz azalma gözlənilsə də, 2021-ci ildə 2,2 faiz artım proqnozlaşdırılır. Dünya Bankının proqnozları da onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı qısa müddətdə bərpa olunacaq. Artıq gələn ildən etibarən ölkəmizdə iqtisadi artımın olacağı nüfuzlu beynəlxalq qurumlar tərəfindən də bəyan edilir.




Həmçinin hesablamalar göstərir ki, bu il iqtisadiyyatdakı geriləməyə baxmayaraq, ticarət balansında müsbət saldo qorunacaq. Belə ki, bu ilin 5 ayı ərzində 7 milyard dollar dəyərində ixrac və 4,2 milyard dollar dəyərində idxal həyata keçirilib. Yəni ölkəmizin cari ilin ilk 5 ayında ticarət dövriyyəsində 2,8 milyard dollar dəyərində müsbət saldo yaranıb.

Azərbaycanın daha bir mühüm üstünlüyü həm də odur ki, çoxsaylı beynəlxalq maliyyə qurumları ölkəmizlə əməkdaşlığa da xüsusi maraq göstərir. Artıq dünyanın aparıcı maliyyə-kredit institutları Azərbaycanla əməkdaşlığı yeni mərhələyə çıxarmaq üçün müraciətlər ediblər. Halbuki bir çox ölkələr, məsələn, Ermənistan xaricdən borc almaqda ciddi problemlər yaşayır. Pandemiya səbəbindən BVF, Dünya Bankı, AYİB, AİB, "Böyük 20-lik" və digər qurumlara borc üçün müraciət edən ölkələrin sayı 150-yə çatıb, artıq müflis elan edilən ölkələr var. Amma Azərbaycan müraciət etməyib, əksinə, borc verənlər Azərbaycanın ondan vəsait götürməsini istəyir. Bu da səbəbsiz deyil. Məsələn, Asiya İnkişaf Bankı müxtəlif ölkələrdə öz layihələrinin uğur dərəcəsini qiymətləndirir. Azərbaycanda bu göstərici 80 faizdir və bu, regionumuz üçün yaxşı göstəricidir. Müqayisə üçün qeyd edək ki, bu göstərici Gürcüstanda 75 faiz, Qırğıstanda 67,6 faiz, Özbəkistanda 65,5 faiz və Qazaxıstanda 53,8 faizdir. Digər tərəfdən, Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin maliyyə baxımından rahat manevrinə imkan yaradır. Belə ki, bu gün dövlətin strateji ehtiyatları onun xarici borcundan beş dəfə çoxdur. Üstəlik, ölkədə ictimai-siyasi, iqtisadi və sosial sabitlik xarici borclar üçün risq səviyyəsini aşağı salır. Region üçün yüksək sayıla biləcək kredit reytinqlərimiz də qiymətli kağızların buraxılışına, dövlət zəmanətli kreditlərin faizinin və sığorta mükafatlarının azalmasına səbəb olur.

**Bu halda Azərbaycan iqtisadi inkişafını sürətləndirmək üçün xaricdən istənilən həcmdə kredit götürə bilər. Bu isə qarşıdakı dövrdə iqtisadi artımın daha dinamik hal alması üçün etibarlı zəmin deməkdir. ÜDM-də azalma tempinin az olması isə onu deməyə imkan verir ki, Azərbaycanın pandemiya böhranından minimum itkilərlə çıxmağa iqtisadi imkanları mövcuddur.**

***Nahid SALAYEV***

**Dünya miqyasında həyata keçirilən ticarətdə enerji resurslarının alış və satışı xüsusi yer tutur. Bu məhsulların ticarətində əsas etibarı ilə dollardan istifadə olunur. Amma son dövrlərdə dolların başqa valyutalarla əvəzlənməsi istiqamətində də fəal addımlar atılır.**

# Azərbaycan neft-qazının dollar əvəzinə avro və manatla satılması gündəmə gəlir...

Məsələn, ən böyük neft istehsalçısı olan Çin neft alışında tədricən dollardan imtina edir. Çin yuanının arxasında qızıl zəmanəti olması bu valyutanı digər ölkələr üçün cəlbedici edir.

Çinin neft alışında dollardan imtina edərək, milli valyutası olan yuana keçməsindən sonra Hindistan da eyni addımı atıb. Dünyanın ən böyük neft idxalçısı Çindirsə, bu sırada ikinci yerdə Hindistan gəlir. Hindistan artıq dollar idxalını milli valyutası olan rupi ilə həyata keçirmək qərarına gəlib. İki ən böyük neft idxalçısı olan bu ölkələrin belə addım atması əsas gəliri neft satışından olan ölkələrin də dollardan imtinası ilə nəticələnə bilər. Xatırladaq ki, hələ prezident Niksonun dövründə ABŞ dollarla qızılın bağlantısını aradan qaldırmış, dünyanın ən iri həcmli ticarət məhsulu olan neftin satışının və alışının dollarla edilməsini təmin etmişdi. Beləliklə, dollar dünyanın maliyyə taxtının sahibi olmuşdu. Artıq dövr dəyişir və belə görünür ki, dollar imperiyasının sonu yaxınlaşmaqdadır. Ölkələr maliyyə rezervlərini qızıl üzərində saxlamaq istiqamətində yeni addımlar atırlar. Digər tərəfdən, enerji məhsullarının satışında dollardan imtina da vəziyyəti dəyişir. Çin və Hindistanla yanaşı, Rusiya da bir daha elan edib ki, dolların hökmranlığına qarşı mübarizə aparacaq. İndi Avropa ölkələri Rusiya neft və qazının alışı zamanı dollar əvəzinə daha çox avro, rubl və ya digər valyuta ilə hesablaşmalar edir. Xatırladaq ki, Rusiya Qərb ölkələrinin əsas neft və qaz tədarükçüsüdür və həmin ölkələrdə başlıca olaraq avrodan istifadə edilir. Hesablaşmalarda dollar yerinə avrodan istifadə olunması və birbaşa məzənnə dəyişilməsinin aparılması alıcı və satıcının ziyanlarını azalda bilər. Elə məhz bu məsələdə Rusiya və avrozona dövlətlərinin maraqları üst-üstə düşür.




Rusiya isə neft və qaz ticarətində dollar əvəzinə avrodan istifadə etməklə dollarsızlaşdırma yolunda daha iki addım atıb: bir tərəfdən öz qızıl-valyuta ehtiyatındakı qızılın payını artırıb - son 10 ildə Rusiyanın qızıl ehtiyatı durmadan artır və 500 tondan 2 min tona qədər yüksəlib. Digər tərəfdən də, Rusiya ABŞ borc kağızlarına sərmayəni azaldıb. Rusiyadan başqa İran, Türkiyə, Venesuela və digərləri də dollara qarşı mübarizəni genişləndirir. İran neftini əsas etibarı ilə avro ilə, Venesuela isə kriptovalyuta və avro ilə satır. Bu tendensiya genişlənərsə, hesab edilir ki, neft və qaz satıcısı kimi Azərbaycan da avrodan, hətta müəyyən həcmdə manatdan da istifadə edə bilər. Azərbaycan neft və qazını avro ilə almaqda Avropa da maraqlıdır. Burada nəzərrə almaq lazımdır ki, rəqəmsal valyutanın da dollara qarşı istifadəsi üçün atılan addımların miqyası genişlənir. Rusiyanın "Nezavisimaya qazeta" mətbu orqanı bu xüsusda yazır:"Dünya COVID-19 xəstəliyinin nəticələrinin öhdəsindən gəlməyə çalışarkən, Çin dollar hesablaşmalarını sıxışdıra biləcək rəqəmsal valyutasını sınaqdan keçirir. Ən azından, ABŞ və Çin arasında qarşıdurmanın yeni bir dövrü şəraitində rəqəmsal valyutanın olması bəzi ölkələrin Amerika sanksiyalarına baxmadan qarşılıqlı hesablaşmalar aparmasına imkan verərdi. Çin Mərkəzi Bankı ABŞ dollarına qarşı çıxan rəqəmsal valyutanı tətbiq edir. Bu həm "Carnegie" mütəxəssisləri, həm də "Bloomberg" analitikləri üçün iyun ayının əsas mövzularından biridir.

"Carnegie India"nın baş məsləhətçisi Rəcəb Bansal bildirib:"Çin Xalq Bankı rəqəmsal valyuta səylərini hazır bir məhsula çevirən ilk böyük mərkəzi bank olub". İndi Çin rəqəmsal yuanı sınaqdan keçirir, ekspertə görə, rəsmi olaraq "bu ilin sonundan gec olmayaraq o, dövriyyəyə buraxılacaq". Çinin rəqəmsal valyuta vasitəsilə qlobal maliyyə bazarlarına təsirini genişləndirmək üçün bir çox imkanları var. Əvvəla bu, "Bir kəmər-Bir yol" təşəbbüsünə aiddir. Rəcəb Bansal bildirib:"Sərhədsiz əməliyyatlar üzrə hesablaşmalar üçün öz rəqəmsal valyutasından istifadə Çinə biznesdə ABŞ-a yönəlmiş mövcud maliyyə sistemindən, demək olar ki, tamamilə yan keçmək imkanı verəcək". İqtisadçının sözlərinə görə, Çin Xalq Bankı artıq bir neçə böyük ölkədə, o cümlədən Fransa, Almaniya, Yaponiya, Rusiya, Sinqapur, Cənubi Koreya, İngiltərə və yeri gəlmişkən, ABŞ-da hesablaşmanı yuanla aparan banklarını yaradıb. Daha əvvəl "Deutsche Bank" mütəxəssisləri yeni növ koronavirus pandemiyasının ölkələrin rəqəmsal valyutalara keçidini sürətləndirəcəyini proqnozlaşdırmışdı. İndi buna əlavə edə bilərik ki, Çin ABŞ-la ticarət və texnoloji qarşıdurmasının yeni dövrü fonunda rəqəmsal yuanın sürətlənmiş tətbiqi üçün əlavə stimul alıb. "Bloomberg" agentliyi Harvard Kennedi Məktəbinin iqtisadçılarına istinadən xəbər verib ki, yuanın nəzəri cəhətdən rəqəmsal versiyası son nəticədə İrana və digər ölkələrə ABŞ sanksiyalarından yayınmağa və ya ABŞ hakimiyyəti və dollarlı beynəlxalq ödəniş sistemlərinin nəzarəti xaricində pul köçürməsinə imkan verə bilər".

Bütün bunlar dollar üçün müsbət heç nə vəd etmir. ABŞ-da pisləşən iqtisadi durum da vəziyyətə təsir edir. Qeyd edək ki, ABŞ-ın büdcə kəsiri koronavirusun yaratdığı böhran üzündən bu ilin may ayında ötən ilin müvafiq dövrünə nisbətən iki dəfədən çox artaraq 424 milyard dollar təşkil edib. May ayında büdcə məxarici əsas etibarilə iqtisadi fəallığı təşviq etmək üçün hökumətin təsdiqlədiyi tədbirlər nəticəsində 53 faiz artaraq 598 milyard dollara çatıb. Büdcə mədaxilinin isə 25 faiz azalaraq 175 milyard dolları adək geriləd iyi ehtimal edilir. Bütövlükdə, 2019-cu ilin oktyabrından başlayan hazırkı maliyyə ilinin ilk səkkiz ayı ərzində federal büdcə kəsiri 1,9 trilyon dollar, yəni ötən ilin müvafiq dövrünə nisbətən 1,2 trilyon dollar çox olub. ABŞ-ın borcunun 23 trilyon dolları keçməsi də dollara inamı azaldan başlıca amillərdəndir. Odur ki, əksər ölkələr indidən buna qarşı hazırlıq görür.

***Ramil QULİYEV***

# Karantindən sonra öz yaxın adamına dəbdəbəli təkrar yas saxlamaq planları olanlar var - İslam bilicilərinin fikri...

**İslamda yas ənənələri tamam fərqli olsa da, sonrakı mərhələlərdə bəzi mənfəətpərəst din adamlarının təsiri ilə Azərbaycanda yas mərasimlərinin keçirilməsi qondarma dəbdəbə ilə müşayiət olunmağa başladı. Mütərəqqi din xadimləri, ziyalılar, vətəndaş cəmiyyətinin təmsilçiləri, hətta bəzi millət vəkilləri də bu qurama qaydalara qarşı çıxıblar. Bütün bunlara rəğmən, vətəndaşlar yenə də öz işlərində idilər.**



## *İsmayıl Əhməd: "Kimlər karantindən sonra öz ölüsünə dəbdəbəli yas mərasimi keçirməyi planlaşdırırsa..."*

Lakin pandemiya dövründə vəziyyət tamamilə dəyişdi, ölkəmizdə tətbiq olunan karantin rejiminin tələblərinə uyğun olaraq, dəbdəbəli yas mərasiminin keçirilməsi qadağan edildi. Yalnız ölü sahibinə yaxın qohumların müşayiətilə dünyadan köçən yaxınını dəfn etmək üçün icazə verildi.

Yas yerindən böyük gəlirlər götürən şəxslər, eləcə də dəbdəbəli yas mərasimləri keçirmək məsələsində yarışan şəxslər hələ də bu məsələ ilə razılaşmaq niyyətində deyil. Karantin rejimi mərhələli şəkildə yumşaldıqdan sonra cəmiyyətdə yas mərasimləri ilə bağlı yeni söz-söhbətlər artıb. Belə ki, karantin dövründə ölüləri üçün dəbdəbəli yas mərasimi keçirə bilməyən bəzi şəxslərin karantin bitdikdən sonra ölüləri üçün təkrar yas tutacağı və dəbdəbəli yas mərasimi təşkil edəcəyi haqqında söhbətlər dolaşır. Artıq bəzilərinin bu proseslə bağlı planlar qurduğu barədə müəyyən söhbətlər var.

Karantindən sonra təkrar yas tutmaq və dəbdəbəli yas mərasimi planlaşdırmaq islami baxımdan nə dərəcədə uyğundur?

İlahiyyatçı İsmayıl Əhməd "Bakı-Xəbər"ə bildirdi ki, nəinki postkarantin dövründə, eləcə də başqa vaxtlarda dəbdəbəli yas mərasimlərinin keçirilməsi qətiyyən doğru deyil. "Mən karantindən neçə il əvvəl də Azərbaycandakı yeni yas ənənələrinə, dəbdəbəli yas məclisinin təşkilinə, orada verilən ehsana qarşı çıxmışam. Dəbdəbəli yas mərasimlərinin nə İslam dini, nə də bizim milli adət-ənənələrimizlə heç bir əlaqəsi yoxdur. Bu, sadəcə olaraq, insanların özlərini çox cılız aparması və süni şəkildə reklam etməsindən başqa bir şey deyil. Guya o yas mərasimlərində verilən ehsanları da dünyasını dəyişmiş insanın ruhuna, savabına aid edirlər, amma bunun da ölü ilə heç bir əlaqəsi ola bilməz. Burada həm də savabdan əsər-əlamət yoxdur. Çünki Allaha xatir orada heç bir iş görülmür. Bunu tam əminliklə deyirəm. Hardasa, kimsə nə isə iddia edirsə, özü üçün edir. Ona görə ki, heç bir halda yas mərasimlərində Allah rizası üçün iş görülmür. İstər imkanlının, istərsə də kasıbın məclisində görülən işlər "başqası nə deyər" prinsipi ilə keçirilir. Amma o ki, qaldı karantindən sonra kimlərinsə dəbdəbəli mərasim keçirməsinə, buna toydan sonra nağara deyirlər. Yəni karantindən sonra kiminsə öz ölüsünə dəbdəbəli ehsan məslisi keçirmək planları qəbuledilməzdir və bu, israfçılığın ən ölçüyəgəlməz bir dərəcəsidir, səviyyəsidir. Yəni israf Allahın dinində haramdır. Kimlər karantindən sonra öz ölüsünə dəbdəbəli yas mərasimi keçirməyi planlaşdırırsa, tam əmin olsunlar ki, onların əməllərində heç bir savab yoxdur, əksinə, bu işi görmək haramdır. Çünki israfçılıq şəri nöqteyi-nəzərdən haram sayılır".

*"Yas məclislərinin hazırkı şəkildə keçirilməsini çox alqışlayıram, bu davam etdirilməlidir"*

İ.Əhməd vurğuladı ki, karantin rejimi dövründə yas mərasimlərinin bu şəkildə keçirilməsini alqışlayır və postkarantin dövründə də yas məclislərinin bu cür dəbdəbəsiz, sadə keçirilməsinə tərəfdardır: "Bu gün karantin rejimində yas mərasimləri necə keçirilirsə, karantindən sonrakı dövrdə də bu cür davam etsin. Yəni yas məclislərinin hazırkı şəkildə keçirilməsini çox alqışlayıram, bu davam etdirilməlidir. Çünki dinimizin buyurduğu da bundan ibarətdir".

***İradə SARIYEVA***

# Supermarketlər virusun daha çox yayılma yerlərinə çevrilir - sosial məsafə tələbi kütləvi pozulur...

**Azərbaycanda ötən həftəsonu tətbiq edilən sərt karantin rejimi ərzaq mağazalarına kütləvi axına səbəb oldu. Kiçik sahəsi olan ərzaq mağazalarından tutmuş, supermarketlərə qədər adam əlindən tərpənmək mümkün deyildi.**



## *Eyyub Hüseynov: "Supermarketlərdə pandemiya dövründə dezinfeksiyaedici maddələrdən istifadə edilsə də..."*

Yeni qərara əsasən, bu həftəsonu da sərt karantin qaydası tətbiq ediləcək. Bu isə o deməkdir ki, həftəsonu yenə marketlərdə insan əlindən tərpənmək mümkün olmayacaq. Qapalı məkanlarda sosial məsafənin qorunmaması koronavirusun yayılmasını sürətləndirir.

Koronavirusun yayılmasının qarşısını almaq üçün qoruyucu vasitələrdən istifadə edilməli, eyni zamanda, sosial məsafəyə də riayət edilməlidir. Ancaq marketlərdə buna əməl edilmir. Marketə daxil olan alıcılardan tibbi maska tələb olunmur. Analoji hal kiçik dükanlarda da müşahidə olunur. Məhəllələrin arasında yerləşən dükanlarda çalışan satıcılar tibbi maskadan istifadə etmirlər. Qeyd edək ki, koronavirusun yayıldığı məkanlar arasında marketlər üstünlük təşkil edirlər.

Bu günlərdə keçirilən Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində iştirak edən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib ki, yoluxma faktları daha çox ictimai nəqliyyat və ictimai iaşə obyektlərində qeydə alınır: "Çünki həmin yerlərdə sosial məsafə qorunmur. Marketlərdə də yoluxma sayı artır. Xəstəliyin klinikası getdikcə ağırlaşır".

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov qeyd etdi ki, hazırkı şəraitdə ancaq Nazirlər Kabinetinin qərarı olarsa, bunun həyata keçirilməsi mümkün olar: "Vətəndaşlar da yeni davranış qaydası nümayiş etdirməlidirlər. Bakıda super və hipermarketlər olsa da, koronavirus pandemiyası dövründə müştərilərin içəri daxil olmasında hansısa qaydalar tətbiq edilmir. Çünki ərzaq mağazaları çalışırlar ki, çox müştəri gəlsin, çox ərzaq satıb gəlirlərini artırsınlar. İnandırıcı deyil ki, hansısa sahibkar mağazaya gələn müştərini içəri sayla buraxsın. Çünki belə halda müştərini itirmək risqi var".

*"Elə ərzaq mağazaları var ki, orada insanlar arasında sosial məsafəni təmin etmək praktiki cəhətdən mümkün deyil"*

E.Hüseynovun sözlərinə görə, iri supermarketlərdə pandemiya dövründə dezinfeksiyaedici maddələrdən istifadə edilsə də, kiçik dükanlarda dezinfeksiyaedici məhlullar olan qablar belə, quraşdırılmayıb: "Almaniya kimi ölkələrdə ərzaq mağazalarında sosial məsafəyə nəzarət edilir. Bizdə kassalarda buna əməl edilmir. Mağaza sahiblərini müştərinin sağlamlığı yox, gəliri düşündürür".

Həmsöhbətimiz onu da əlavə etdi ki, elə ərzaq mağazaları var ki, orada insanlar arasında sosial məsafəni təmin etmək praktiki cəhətdən mümkün deyil: "20-30 kvadratmetr sahəsi olan ərzaq dükanları var. Belə yerlərdə sosial məsafəni qorumaq çətindir. Heç bir sahibkar mağazanın sahəsinə uyğun müştəri qəbul etməyəcək. Gərək Nazirlər Kabinetinin bunun üçün müvafiq qərarı olsun".

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, son bir neçə həftədə respublika ərazisində karantin rejiminin mərhələli yumşaldılması prosesi baş verdi. Bu prosesdən sui-istifadə hallarına yol verənlər, intizamsız davrananlar da olur. Təəssüf ki, bəzi vətəndaşlar dövlətin vətəndaşlarımızın sağlamlığı, təhlükəsizliyi naminə atdığı addımları düzgün dəyərləndirə bilmirlər.**

# Qarşıdakı 15 günlük karantin qaydalarında hansı dəyişikliklər edildi - yeniliklər daha çox məsuliyyətli vətəndaşlar üçündür...

***Fatimə Hacıbəyli:** "Bu qərarın uğurlu icrası biz vətəndaşlardan asılıdır və məsuliyyətli vətəndaşlar onsuz da qaydalara əməl edəcəklər"*



Bu da virusa yoluxanların sayının artması ilə müşayiət olunur.

Bildiyimiz kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah ölkə ərazisində yeni növ koronavirus (COVID-19) xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyəti təhlil edərək xüsusi karantin rejiminin iyunun 15-dən iyulun 1-i saat 00:00-dək uzadılmasına qərar verib. Karantin müddətinin uzadılmasına səbəb ölkə ərazisində koronavirus infeksiyasının yayılma səviyyəsinin artmasıdır.

Operativ Qərargahın ölkədə karantin qaydalarının sərtləşdirilməsi barədə budəfəki qərarına əsasən, 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərləri və Abşeron rayonu ilə yanaşı, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində yalnız fəaliyyətinə icazə verilən şəxslərin gediş-gəlişinə və ya yaxın qohumunun dəfn mərasimində iştirak etmək üçün evdən çıxmağa icazə veriləcək.

Məlum olduğu kimi, budəfəki məhdudiyyət ötən həftənin sonunda tətbiq edilən prosesdən fərqlənir. Qeyd edilənə görə, keçən həftəsonu sərtləşdirilmiş karantin rejimində fəaliyyətinə icazə verilən şəxslərin yalnız fəaliyyət göstərdikləri müəssisələrin xidməti avtomobilləri ilə hərəkətinə icazə verilirdisə, budəfəki qərarda bu məqam nisbətən yumşaldılıb. Yəni həmin şəxslər iş yerlərinə gedib-gəlmək üçün yalnız xidməti deyil, şəxsi avtomobillərindən də istifadə edə bilərlər. Bundan başqa, yaxın qohumunun dəfn mərasiminə qatılmaq istəyən şəxs də həmin mərasimə şəxsi avtomobili ilə gedib-gələ biləcək.

Yeni qərara əsasən, çörək zavodları və bu tip müəssisələrdə çalışanlar iyunun 15-də saat 16:00-dan etibarən istehsal üçün iş yerlərinə gedə biləcəklər.

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov "Trend"ə açıqlamasında bildirib ki, çörək istehsal edən müəssisə işçilərinin bir gün əvvəldən işə çıxmasına icazə verilməsi növbəti iş gününə mağazalarda çörək satışının təmin olunması ilə bağlıdır: "Ötən həftə sərt karantin günlərində ölkədə çörək təminatı ilə bağlı problem olmayıb. Lakin Operativ Qərargah qərara alıb ki, iyunun 16-da mağazaları çörəklə təmin etmək üçün iyunun 15-də saat 16:00-da çörək sexi işçiləri işə gələ bilər".

Operativ Qərargahın budəfəki qərarında daha bir fərqlilik ev heyvanlarının gəzdirilməsinə icazə ilə bağlıdır. Qərara görə, ev heyvanları saxlayan şəxslər həmin heyvanları sərt karantin günlərində küçəyə çıxarmaqda sərbəstdirlər. Lakin bu prosesdə vətəndaşlar sui-istifadə hallarına yol verməməlidirlər.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində bildirdi ki, önümüzdəki 15 günlük karantin qaydaları kifayət qədər yeniliklərlə diqqəti çəkir. "Son həftələr ölkəmizdə karantin rejiminin yumşaldılması ilə bağlı verilən qərarlardan sonra bəzi vətəndaşlar sanki daha "pandemiya bitib" təfəkkürü ilə davrandılar. Əlbəttə, bu da vətəndaşın özünə böyük ziyan vurdu. Bildiyimiz kimi, karantin rejimi yumşaldıldıqdan sonra virusa yoluxanların statistikasında artım baş verdi, vətəndaş məsuliyyətsizliyi nəticəsində yoluxma halları artmağa başladı. Keçən həftənin sonunda ikigünlük sərt karantin rejiminə keçilməsi birbaşa bu artımın qarşısını almağa yönəlmişdi. Vətəndaşların 95 faizi dövlətin qərarına böyük anlayışla yanaşsalar da, bəzi məsuliyyətsiz şəxslər müxtəlif bəhanələrlə evdən bayıra çıxdılar. Sözsüz ki, bu da yaxşı nəticə vermədi, virusun daha çox insanı tapmasına şərait yaratdı. Operativ Qərargah tərəfindən verilən yeni qərar da sırf vətəndaşların sağlamlığının qorunması, virus təhlükəsindən uzaqlaşdırılması ilə bağlıdır.

*"Gərək bu dəfə yasa gedənlər, ev heyvanlarını gəzdirmək üçün bayıra çıxanlar, yaxud iş icazəsi olanlar..."*

Ötən həftə respublikanın 4 şəhərində və 1 rayonunda insanların yaşayış yerini, evini tərk etməməsi göstərilirdisə, mağazalar, apteklər, digər müəssisələr bağlanmışdısa, bu dəfə bir qədər yanaşma fərqlidir. İndi bu qaydalar Yevlax, Kürdəmir, Salyan və İsmayıllı rayonlarında da tətbiq ediləcək. Yeni qərara görə, iyunun 15-də çörək zavodları işləyəcək, eləcə də ev heyvanları saxlayan adamların heyvanlarını bayırda gəzdirməsinə icazə veriləcək, bəzi işləyən müəssisələr isə işçilərinin işə gəlməsini təmin etmək üçün müvafiq qurumdan elektron qaydada icazə alacaqlar. Bilirsiniz ki, ev heyvanları saxlayan adamlar o heyvanları müəyyən müddətdə havaya çıxarmalı, gəzdirməlidirlər. Keçən həftə bu mümkün olmamışdı, amma bu dəfə mümkün olacaq. Karantin rejimi ilə bağlı tətbiq edilən yeni qaydalar vətəndaşların sağlamlığı, təhlükəsizliyi, virusa yoluxmaması üçündür. Dövlət gərəyi olan bütün tədbirləri görür və vətəndaş da bu qaydalara uyğun davranmalıdır.

Bir məsələni də deyim ki, yeni qaydaya əsasən, yaxın qohumunun dəfn mərasiminə qatılmaq istəyən şəxs də həmin mərasimə şəxsi avtomobili ilə gedib-gələ biləcək, amma bu, gərək sui-istifadə halı yaratmasın. Yəni vətəndaş ona yaradılan şəraitdən başqa məqsədlə istifadə etməsin, əylənmək, gəzmək üçün küçələrə çıxmasın. Bilirsiniz ki, SMS icazə sistemi mövcud olanda bir çox vətəndaş "yasa gedirəm" adı altında başqa məqsədlər üçün evlərini tərk etmişdi. Amma gərək bu dəfə yasa gedənlər, ev heyvanlarını gəzdirmək üçün bayıra çıxaranlar, yaxud iş icazəsi olanlar dövlətin yaratdığı şəraitdən, göstərdiyi humanizmdən doğru şəkildə istifadə etsinlər. Bu qərarların uğurlu icrası biz vətəndaşlardan asılıdır və məsuliyyətli vətəndaşlar onsuz da qaydalara əməl edəcəklər, indiyə qədər məsuliyyətsiz davrananlar da nəhayət ki, məsuliyyətlərini dərk etməlidirlər. Vətəndaş nə qədər məsuliyyətli olarsa, respublika ərazisində virusa yoluxma halları da azalar. Virusa yoluxanların sayının azalmasında vətəndaşların bütün qaydalara əməl etməsi böyük rol oynaya bilər" - deyə F.Hacıbəyli qeyd etdi.

***İradə SARIYEVA***

**Bəzi hallarda marketlərdə vitrinə düzülən malların üzərindəki qiymətlərin kassa qiyməti ilə üst-üstə düşməməsi alıcıların daha çox narazılıq etdiyi məqamlardandır.**

# Məşhur marketlər şəbəkəsində nə baş verib - "Bazarstore"dan reaksiya...

***"Bazarstore" mağazalar şəbəkəsi:** "Burada texniki səhv baş verib"*




Alıcılar, demək olar ki, supermarketlərin bəzilərində bu cür hallarla tez-tez rastlaşdıqlarını söyləyirlər.

Müəyyən alıcılar isə qiymət fərqini evdə kassa çekinə diqqətlə baxdıqdan sonra hiss etdiklərini söyləyirlər. Vitrində malın üzərinə yazılan qiymətlə kassada göstərilən rəqəmin eynilik təşkil etməməsi iə bağlı faktın "Bazarstore" mağazalar şəbəkəsində qeydə alınması barədə sosial şəbəkədə məlumat yayılır. Narazılıq mağazada satılan məhsulun üzərində yer alan qiymətlə kassada göstərilən rəqəmlərin eynilik təşkil etməməsi ilə bağlı olub. Şikayətçi qeyd edir ki, o bu halı artıq ikinci dəfədir yaşayır: "Bazarstore"un Əhmədli filialında alış-veriş etdim. Səhər işə gecikdiyim üçün qiymət fərqinə fikir vermədim. İndi görürəm ki, məhsulun üzərində bir qiymət, kassada başqa qiymət göstərilib. 0.30 qəpik elə böyük məbləğ olmaya bilər, amma milləti aldadıb belə oğurluq etmək utancvericidir".

*"...bəzən isə qiymət sayının çoxluğuna görə bəzi qiymətlər sistemə daxil olmur"*

Məsələ ilə bağlı "Bazarstore" mağazalar şəbəkəsi ilə əlaqə saxladıq. "Bazarstore" mağazalar şəbəkəsindən redaksiyamıza verilən məlumata görə, burada texniki səhv baş verib: "Qiymət kassaya hər səhər göndərilir və məhsullar üzrə qiymət sayı çox olur. Bəzən isə qiymət sayının çoxluğuna görə bəzi qiymətlər sistemə daxil olmur. Belə şikayətlər olduqda biz müştəriləri dəvət edərək qiymət fərqini onlara ödəyirik".

***Günel CƏLİLOVA***

№ 93 (4224) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

12 İYUN 2020-ci il

www.baki-xeber.com

# Kompyuteri gözlə idarə edən elektron eynək yaradıldı




**Nəbz ölçən, addım sayan cihazlar barədə tez-tez eşidirik. Yeni yaradılan elektron eynək isə istifadəçilərin beyin dalğaları vasitəsilə sağlamlıqlarını təqib edəcək. Bununla yanaşı, insanlar gözləri ilə oyunları idarə edə biləcəklər.**

"Ted.az" bildirir ki, yeni yaradılan elektron eynək günəş şüaları altında tündləşə bilir. Eynəyin 3D ölçülü printerlə hazırlanan çərçivəsinə EEG və EOG sensorları yerləşdirilib. EEG sensorları beynin elektrik fəaliyyətini ölçür, paralel olaraq göz hərəkətlərini izləyir. Əldə edilən bütün məlumat işlənir. EEG məlumatı ilə insanın sağlamlığı təqib edilir. Digər tərəfdən, EOG məlumatı sayəsində adam, sadəcə, göz hərəkətləri ilə tetris oynaya bilir. Bu xüsusiyyət sayəsində əllər istifadə edilmədən kompyuterlər və ya xüsusi köməkçi alətlər idarə olunur.

**Bu isə serebral iflic xəstələri üçün bəzi yeni imkanlar təqdim edə bilər. Bundan əlavə, elektron eynəklərin bir qulağında ultrabənövşəyi işıq sensoru var. Əgər gözünüzə sıx halda ultrabənövşəyi şüa gəlirsə, sensor ultrabənövşəyi əngəlləyici geli xəbərdar edir və eynək qaralır. Bunun sayəsində eynək bir anda gün eynəyinə çevrilir.**

## Dünyanın ən kiçik böcək robotu...

**Harvard Universitetinin araşdırmaçıları daha əvvəl "Rolls-Royce" şirkətinin reaktiv mühərriklərinin təmirində istifadə edilməsi üçün hazırladığı HAMR mikro robotunu daha da kiçik hala gətirdilər.**

Əvvəlki modelin yarısı böyüklüyündə olan HAMR-JR böcəklərdən ilham alınaraq hazırlandı. "Harvard Ambulatory Microrobot" (HAMR) olaraq adlandırılan bu robotlar dırmaşma qabiliyyətləri ilə ön plana çıxır. Ayaqları yapışqan olaraq hazırlanan robotun tərs gedə bilmə qabiliyyəti də var. Hazırda olduqca kiçik olan robot elm insanları tərəfindən daha da kiçik hala gətirildi. Tarakandan ilhamlanaraq hazırlanan robot ən kiçik və ən sürətli robotlardan biri kimi tanınır. HAMR robotunun yarı böyüklüyündə hazırlanan yeni robot HAMR-JR əvvəlki modelə görə üzmə və suyun altında gedə bilmə qabiliyyətləri ilə önə çıxır. Robot haqqında danışan Kauşik Ceyaram bu barədə belə danışıb: "Bu işin möcüzə qismi odur ki, əvvəlki dizaynda olan heç bir şeyi dəyişdirmək məcburiyyətində qalmadıq. Bu sistemin, sadəcə, müxtəlif ölçülərdəki cihazlara tətbiq oluna biləcəyini sübut etdik".





Qoç - Uğurlar əldə etmək üçün ifrat dərəcədə səylərə ehtiyac yoxdur. Praktiki olaraq bütün problemlərin öhdəsindən gələ bilərsiniz. Bəyəndiyiniz, sərfəli və mənfəətli saydığınız ideyaları həyata keçirməyə çalışın.



**Qoç** - Uğurlar əldə etmək üçün ifrat dərəcədə səylərə ehtiyac yoxdur. Praktiki olaraq bütün problemlərin öhdəsindən gələ bilərsiniz. Bəyəndiyiniz, sərfəli və mənfəətli saydığınız ideyaları həyata keçirməyə çalışın.



**Buğa** - Yalnız dəqiq və səlis fəaliyyət planı hazırlayandan sonra aktiv işlərə başlayın. Bütün detalları fikirləşin, zəif və güclü yönləri nəzərə alın. Tələskənliyə yol verməyin. Uğuruna inanın.



**Əkizlər** - Təxribatlara uymayın. Bu gün yaxın ətrafınızdakı insanlar əsəblərinizlə oynayacaqlar. Sakitliyin heç olmasa görüntüsünə nail olmaq böyük səylər və zəhmət tələb edir.



**Xərçəng** - Səbrli və inadkar olun. Sadə olmayan günü itkilərsiz başa vurmağa çalışın. İşlərinizdə irəliləyişlərə nail olmaq istəyirsinizsə, sayıq, sərvaxt davranmaq gərəkdir. Gələcək qələbələrin rəhni indi qoyulur.



**Şir** - Gün uğurlu başlanacaq. Günün ilk yarısında qətiyyətli və iradəli olsanız, ciddi irəliləyişlərə nail ola bilərsiniz. Yaxınlarınızla ünsiyyətləri aktivləşdirin, səmimi və qayğıkeş olun.



**Qız** - Çox əlverişli və uğurlu gündür. Müsbət təmayüllərin təsiri güclü olduğundan ciddi səylərə əl atmadan uğura nail ola bilərsiniz. Yaxın ətrafınızdakı insanlar adi günlərlə müqayisədə sizə yardım istəyi ilə daha çox müraciət edəcəklər.



**Tərəzi** - Pis gün deyil. Hər şey istədiyiniz kimi olmasa da, tövrünüzü pozmayın. Sakit və təmkinli olun. Yaxın ətrafınızdakı insanların bədbinlikdən qurtulmaları üçün əlinizdən gələni edin.



**Əqrəb** - Danışıqlarla müzakirələrdə çox vaxt keçirməyin. Belə müzakirələr xoş olsa da, mənasızdır. Mühüm məsələni sanki təsadüfən yada salın. Faydalı məlumat əldə etməyə çalışın.



**Oxatan** - Yaşam sizə çox asan, asudə gəlməsin. Həyatı daha da çətinləşdirəcək süni problemlər yaratmayın. Ünsiyyətdə xasiyyətinizin ən pis yönlərini sanki bilərəkdən nümayiş etdirməyin.



**Oğlaq** - Məhsuldar gündür. Sizin üçün önəmli, amma mürəkkəb işə başlaya bilərsiniz. Yaşam enerjisi və qüvvələriniz ən çətin işin öhdəsindən gəlməyə imkan verir. Etibarlı dostlar və müttəfiqlər sizi tək qoymayacaqlar.



**Dolça** - Nə istədiyinizi dəqiqləşdirin. Sizi dilə tutsalar da, kənar işlərə razılaşmayın. Yanındakı insanlarla manipulyasiyalar etmək və onlardan öz maraqları üçün faydalanmağa adət edən insanlara sərt cavab verin.



**Balıqlar** - Səmimi, qayğıkeş olmağa çalışın. Belə davranış yaxın ətrafınızdakı insanları laqeyd qoymayacaq. Yeni tanışlıqlar üçün pis zaman deyil. Yaşamınızda sonradan önəmli rol oynayacaq romantik münasibətlər yarana bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## TƏBRİK!



Şirin-şəkər Umay balamızı bir yaşı tamam olması münasibətilə atası Araz bəy, anası Sevil xanım, babası Kazım bəy, nənəsi Narungül xanım, qardaşları, bacıları, əmiləri, dayıları, bibiləri və xalası təbrik edirlər.
Ad günün mübarək, Umay bala.

## Elan

Şəki şəhər sakini Lətifov Həmid Şahin oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

---

Abşeron rayonu, Xırdalan qəsəbəsi, Sumqayıt şosesi, 7-ci kilometr qəsəbədə inşa edilən 1-ci yaşayış binası, 49-cu blok, 9-cu mərtəbə, 69,50 kv. metrlik 34-cü mənzilə dair Kərimova Ülkər Murad qızı ilə "Akkord" Sənaye Tikinti İnvestisiya Korporosiyası ASC arasında bağlanmış 15.07.2014-cü il tarixli alqı-satqı müqaviləsi və №9226 saylı maliyyə arayışı, habelə 15.07.2014-cü il tarixli alqı-satqı müqaviləsi və №18822 saylı maliyyə arayışı itirildiyi üçün etibarsız sayılır.

# Tez-tez əl yumaq zərərlidir?

**"Virusların yayılmasına qarşı mübarizədə əsas vasitə olan əl yumaq da zərərli ola bilər. Bəzi hallarda gigiyena qaydalarının tərsi əks nəticə verə bilər".**

"Milli.Az" xəbər verir ki, bunu allerqoloq-immunoloq həkim Aleksey Bessmertnı "Sputnik" radiosuna müsahibəsində söyləyib. "Sözsüz ki, şəxsi gigiyenasına laqeyd yanaşan insanlarda virus və xəstəliklər tez yayılır. Bu səbəbdən bütün həkimlər yeməkdən əvvəl əlləri yumağı və tez-tez duş qəbul etməyi məsləhət görür. Əlbəttə ki, bu, xəstəliklərdən tam qorumur, lakin bir çox xoşagəlməz halın qarşısını ala bilir. Lakin əllərin tez-tez yumağın da zərərli tərəfləri var", - deyə o, qeyd edib. Bessmertnı gündə 6-8 dəfədən çox əlləri yumağın dərinin qurumasına və zədələnməsinə səbəb olduğunu bildirib. Bu zaman infeksiyalardan qoruyan faydalı bakteriyalardan ibarət qoruyucu qat da yuyulur. Bundan başqa, həkim antiseptik vasitələr və nəm salfetlərin infeksiyanın daha da yayılmasına səbəb ola biləcəyini vurğulayıb.



*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.